Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

15 MAY 2019-cu il

№ 86 (3984)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANIN AZƏRBAYCANLA QIRICI TƏYYARƏ DİSBALANSINI RUSİYA HESABINA AZALTMAQ CƏHDİ İFLASA UĞRAYIR

səh. 6

Ermənistanın təcavüzü Qafqazda hətta Çinin də maraqlarına zərbə vurmağa başlayır

səh. 9

ABŞ İraqa müdaxilə etmiş əsgərlərin sayı qədər ordunu İranın üstünə göndərir

səh. 7

"Təzadlar" qəzetini yenidən "Qara siyahı"ya qaytaran səbəblər...

səh. 4

Paşinyan "Şərq tərəfdaşlığı" zirvəsində də Qarabağa tərəf statusu təxribatını davam etdirdi

səh. 5

Balaxanı qəsəbəsinin "böyük avtobuslar" problemi, əslində, böyük problem kimi...

səh. 12

Azyaşlı azərbaycanlıların oğurlanaraq zorlanması xəbərlərini tirajlayanlar erməni təbliğatçılarına fakt verir

səh. 12

Yas mərasimlərimizdə qəzəl?

səh. 14

Müəyyən yaşa qədər uşaqlar üçün muzeylərimizə giriş niyə pulsuz olmasın...

səh. 14




səh. 8

## «Şərq tərəfdaşlığı» zirvəsinin Azərbaycanın ərazi bütövlüyünü tanımadığı barədə yalan dünya boyu ifşa edildi



Radikal antimillilər yumşalır, Temirxan təklənir, Prezident Əliyevə dəstək aksiyaları genişlənir - Avropada nə baş verir...

səh. 3



Azərbaycanda icra başçılarının fəaliyyəti ilə bağlı qapalı araşdırmalar layihəsi...

səh. 5

«İyirmi il rəhbər vəzifədə mürgüləyənlər, yarım milyona akt zalı təmir edənlər...»

səh. 11

səh. 10

Əhliman Əmiraslanov pasiyent hüquqları barədə qanunu yenidən gündəmə gətirdi...



səh. 3

Britaniyanın Bakıdakı səfirinin futbol bəyanatı tam yeni vəziyyət yaratdı...



səh. 13

Dövlət balıqyetişdirmə müəssisələri özünü doğrultmadı - İdxal problemi və Ekologiya Nazirliyinin özəlləşdirmə proqramı şəffaflıq gözləntisində...



səh. 15

Ədəbi mükafatların verilməsində qeyri-şəffaflıq şübhələri - bir adam neçə dəfə ala bilər...



səh. 13

Azərbaycanda nikaha məcburetmə halları necə yaranır...



# Məmmədyarov baltanı kökündən vurdu - "hamı hər şeyi bilir, özümüzü aldatmayaq..."



**Ermənistan və Azərbaycan substantiv danışıqlara başlamalıdır.**

"Trend"in məlumatına görə, bunu xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə "Şərq tərəfdaşlığı"nın onilliyinə həsr olunmuş konfrans çərçivəsində panel müzakirələri zamanı deyib.

Nazir bildirib: "Biz özümüzü nə barədə danışdığımız, parametrləri, prinsipləri bilməməyimiz haqqında aldatmamalıyıq. Hamı nə baş verdiyini, təkcə iki ölkədə deyil, həm də həmsədr ölkələrin paytaxtlarında planların nələr olduğunu bilir. Lazım olan tək şey siyasi iradədir".



## Prezident İlham Əliyev akademik Vladimir Volobuyevin 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb

**Prezident İlham Əliyev akademik Vladimir Volobuyevin 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2019-cu ilin iyul ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kənd təsərrüfatı elmləri doktoru, professor Vladimir Rodionoviç Volobuyevin anadan olmasının 110 illiyi tamam olur.

Akademik Vladimir Volobuyev torpaqların meliorasiyası, geomorfoloji xəritələrin tərtibi, torpaqla iqlimin qarşılıqlı əlaqəsi və torpaq ekologiyasına dair böyük nəzəri-təcrübi əhəmiyyətə malik sanballı araşdırmalarının nəticələri kimi müəyyən etdiyi prinsip və apardığı hesablamalarla, irəli sürdüyü nəzəriyyə və işləyib hazırladığı təsnifatlarla Azərbaycanda torpaqşünaslığın inkişafına böyük töhfələr verib. Onun rəhbərliyi altında yetişən yüksək ixtisaslı kadrlar tərəfindən respublikada torpaqşünaslıq üzrə çox sayda əsaslı tədqiqat işləri uğurla yerinə yetirilib.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Milli Elmlər Akademiyası akademik Vladimir Rodionoviç Volobuyevin 110 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# Dağlıq Qarabağ münaqişəsinin həll olunmama səbəbi - Paşinyan dedi, Hikmət Hacıyev də onun "ağzından vurdu"...



**Brüsseldə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında qısa söhbət olub. Bunu "Trend"ə özəl olaraq Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.**

Onun sözlərinə görə, görüş Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsünün 10 illiyinə həsr olunmuş tədbir çərçivəsində baş tutub.

N.Paşinyanın açıqlamasına gəldikdə isə, Administrasiya rəsmisi qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının əsas səbəbi Ermənistanın işğalçılıq siyasətidir: "Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoyduqdan sonra münaqişənin həllində irəliləyiş və bölgədə sülh təmin oluna bilər. Danışıqların formatına gəlincə isə, münaqişənin iki tərəfi vardır ki, bu da Ermənistan və Azərbaycandır, danışıqlar bu formatda aparılır".

## Vışeqrad qrupu "Şərq tərəfdaşlığı"nın 10 illiyi münasibətilə bəyanat yayıb

**Vışeqrad qrupu bu il mayın 6-da Slovakiyanın sədrliyi çərçivəsində bu qurumun xarici işlər nazirləri və "Şərq tərəfdaşlığı" ölkələrinin Bratislava şəhərində keçirilmiş görüşünə dair bəyanat yayıb.**

Xarici İşlər Nazirliyi Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, bəyanatda son 10 il ərzində "Şərq tərəfdaşlığı" ölkələrinin əldə etdiyi uğurlar və proqramın icrasının nəticələri, eləcə də növbəti 10 il üçün baxışlar və məqsədlər öz əksini tapıb. Eyni zamanda, sənəddə sözügedən proqramın Avropa İttifaqının gündəliyində saxlanılmasının vacibliyi və ortaq fundamental dəyərlərə və beynəlxalq hüquq prinsiplərinə, insan hüquqlarına və demokratiyaya, qanunun aliliyinə, hesabatlılıq və yaxşı idarəçiliyə, dayanıqlı inkişaf və bazar iqtisadiyyatına əsaslanan ümumi öhdəliklərə uyğun olaraq unikal Avropa qonşuluq siyasətinin davam etdirilməsinə qarşılıqlı maraq qeyd edilib. Vışeqrad Qrupunun bəyanatında sözügedən qrupa daxil olan ölkələrin bütün tərəfdaş ölkələrin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə birmənalı dəstək verdiyi xüsusilə vurğulanıb.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

# Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## ATMU-da Göyçay döyüşləri ilə bağlı ilk tədbir keçirildi



**Azərbaycan Turizm və Menecment Universitetinin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə Göyçay döyüşləri (iyun-iyul 1918) ilə bağlı seminar keçirilib.**

İctimai Problemlərin Tədqiqi Assosiasiyasının Mətbuat Xidmətindən "Bakı-Xəbər"ə bildirildiyinə görə, tədbiri giriş sözü ilə "Biznes idarəçiliyi" fakültəsinin dekanı Anar Mirzəyev açıb. Daha sonra professor Məhərrəm Zülfüqarlı mövzu ilə bağlı geniş məruzə edib.

Tədbirin sonunda mövzu ilə bağlı müzakirələr edilib, iştirakşıları maraqlandıran suallar cavablandırılıb.

Layihənin məqsədi Azərbaycan tarixində müstəsna əhəmiyyət kəsb etmiş Göyçay döyüşlərindəki qəhrəmanlıqlarla vətəndaşları yaxından tanış etmək, sovet dövründə saxtalaşdırılmış tarixə obyektiv münasibəti ortaya qoymaq və Azərbaycan tarixinin ağ ləkələrdən təmizlənməsinə kömək etməkdir.

Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə həyata keçirilir.

# Radikal antimillilər yumşalır, Temirxan təklənir, Prezident Əliyevə dəstək aksiyaları genişlənir - Avropada nə baş verir...

***Fərəc Quliyev:** "Artıq sübut olunur ki, Azərbaycan diasporu ilə Azərbaycan dövləti arasında qarşılıqlı himayə mexanizmi mövcuddur"*

**Son vaxtlar Avropada maraqlı proseslərin baş verdiyinin şahidi oluruq. Azərbaycan hakimiyyətinə qarşı çox radikal mövqeyi ilə tanınan və xaricdə mühacir kimi yaşayan şəxslərin İlham Əliyevə açıq dəstək ifadə etdiyini görürük. Bu günlərdə "Meydan TV" kimi radikal bir layihənin qurucusu Emin Milli sosial şəbəkələr vasitəsilə İlham Əliyevdən açıq üzr istədi.**

Bunu da belə əsaslandırdı ki, indiyə qədər qərəzli, kinli olub. Buna bənzər mövqeyi digər mühacir jurnalist Elnur Məcidli də sərgilədi.

Hiss olunur ki, artıq Avropa ölkələrinə sığınan mühacirlər bəzi oyunlardan tam xəbərdar olublar. Buna görə də nicatı öz dövlətlərində axtarmağa başlayıblar. Biz, eyni zamanda, görürük ki, bir vaxtlar özünü virtual "qəhrəmana" çevirən Orduxan Temirxanın videolarına baxanların sayı kəskin şəkildə aşağı düşüb. Onun ətrafında əvvəlki qələbəlik yoxdur. Çağırdığı aksiyalarda özündən başqa kimsə gözə dəymir. Eyni zamanda, əvvəllər İlham Əliyevin səfərləri zamanı hansısa etiraz aksiyalarının keçirilməsinə uğursuz cəhdlər olurdusa, bu da yoxa çıxıb, əvəzində isə Avropada İlham Əliyevə dəstək aksiyaları keçirilir. Mayın 13-də Avropa azərbaycanlılarının təşəbbüsü ilə Belçikanın paytaxtı Brüssel şəhərində Azərbaycan Prezidentini qarşılama və ona dəstək aksiyası keçirilib. Aksiyanın əsas təşkilatçısı Azərbaycan-Belçika Dostluq Cəmiyyəti olub. Dəstək aksiyasına Almaniya, Hollandiya, Macarıstan, Belçika, Fransa və bəzi başqa Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və üzvləri qoşulublar.

Avropanın siyasi mərkəzi hesab olunan Brüssel şəhərində belə bir aksiyanın keçirilməsində məqsəd bir sıra beynəlxalq təşkilatların Azərbaycana qarşı münasibətlərində kök salan ikili standartlara etiraz etmək, ölkəmizin demokratik prinsiplərə hərtərəfli yiyələndiyini bir daha diqqətə çatdırmaq olub. Aksiyada "Cənab Prezident, Avropaya xoş gəlmişsiniz", "Cənab Prezident, Sizi salamlayırıq" və s. kimi şüarlar səsləndirən soydaşlarımız Azərbaycanın dövlət başçısını və onun siyasi kursunu daim dəstəklədiklərini bəyan ediblər. Onlar azərbaycanlı olduqları ilə fəxr etdiklərini bildiriblər. Diaspor təşkilatlarının rəhbərləri və üzvlərinin çıxışlarında Azərbaycanın hər zaman ümumbəşəri dəyərlərə hörmətlə yanaşdığı, Avropa ölkələri ilə Azərbaycanın dostluq münasibətlərinin daim inkişaf edən xətlə getdiyi, gündən-günə daha da dərinləşdiyi diqqətə çatdırılıb, bütün bunlar ölkəmizin böyük uğuru kimi qiymətləndirilib. Aksiya iştirakçıları bundan sonra da ölkə başçısına daim dəstək olacaqlarını bəyan ediblər. Aksiya Brüsselin məşhur Şuman meydanı yaxınlığında keçirilib. Avropadakı soydaşlarımızın Azərbaycan dövləti, onun Prezidentinə bəslədiyi münasibət, hətta radikalların mövqeyindəki dönüş nəyin əlaməti sayıla bilər?




*"Bu mexanizmin işə düşməsi o deməkdir ki..."*

**Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, atılan addımları təqdir etmək lazımdır:** "Hətta vaxtilə radikal müxalif mövqedə olan adamların bu gün Prezidentdən üzr istəməsində qəbahət nəsə görmürəm. Eyni sözü Prezidentin mövqeyini müdafiə ilə bağlı seçənlərlə də bağlı deyə bilərəm. İnsan kamil olmalıdır. Yaxşıya yaxşı, pisə isə pis deməyi bacarmalıdır. O insanlar Azərbaycanın maraqlarına uyğun olan siyasəti müdafiə etmək yolunu tutursa, demək ki, həmin adamlar vətənpərvərdir. Heç də mövqeləri fərdlərə qarşı olan qan düşmənçiliyi deyil. Vay o adamların halına ki, qaranı da ağı da bir rəngdə görürlər. Müxalif mövqeləri də problemlərə yox, şəxslərə qarşıdır. Bu cür adamlar çox təhlükəlidirlər. İkinci bir məsələ isə Avropadakı diaspor nümayəndələrimizin fəallığı və hakimiyyəti dəstəkləməsilə bağlıdır. Oradakı diaspor nümayəndələrimizin Prezidentə, onun Avropa ilə yenilənən siyasətinə dəstək verməsi o anlama gəlir ki, aralarında bir-iki mənfi elementin olmasına baxmayaraq, diasporumuz sağlamdır. Artıq sübut olunur ki, Azərbaycan diasporu ilə Azərbaycan dövləti arasında qarşılıqlı himayə mexanizmi mövcuddur. Necə ki, Azərbaycan dövləti diasporumuza təmənnasız dəstək verir, eyni zamanda, onlar da bu dəstəyi öz dövlətlərinə verirlər. Bu mexanizmin işə düşməsi o deməkdir ki, heç kim Azərbaycan dövləti ilə onun diasporu arasındakı qarşılıqlı himayə mexanizmini pozub bizim gücümüzü bölə bilməz. Bu cür örnəklər cəmiyyətə yaxşı nümunə kimi sirayət edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Britaniyanın Bakıdakı səfirinin futbol bəyanatı tam yeni vəziyyət yaratdı...

***Ramil Hüseynov:** "Fikrimcə, Britaniya səfiri bu açıqlaması ilə incə diplomatik gediş edərək sözügedən məsələdə ədalətsiz yanaşmaya düzəliş etdi"*

**"Arsenal" və "Çelsi" komandalarını UEFA Avropa Liqasının may ayının 29-da keçiriləcək final oyununa vəsiqə qazanmaları münasibətilə təbrik edirəm". Məlum olduğu kimi, bu sözləri Böyük Britaniyanın Azərbaycandakı səfiri Karol Krofts deyib.**



*"Mənə elə gəlir ki, bununla, bir növ, İngiltərə öz səhvini düzəltdi"*

O bildirib ki, hər iki komanda əvvəllər Bakıda oyun keçirsələr də, birbirlərinə qarşı oynamayıblar: "Tarixdə ilk dəfə İngiltərə Premyer Liqasının iki klubu Bakının möhtəşəm stadionunda qarşı-qarşıya gələcəklər və mən bu oyunun yaddaqalan bir hadisə olacağından əminəm. Biz əvvəlki vaxtlardan daha çox britaniyalı futbol azarkeşinin Bakıya səyahət edəcəyini gözləyirik. Əminəm ki, onlar bu gözəl şəhərdə keçirəcəkləri vaxtdan məmnun qalacaqlar. Azərbaycan özünün yüksək qonaqpərvərliyi ilə tanınır və mən britaniyalı azarkeşlərin burada isti qarşılanacaqlarına inanıram".

Səfir onu da bildirib ki, bu həftə Böyük Britaniya polisindən, o cümlədən, "Arsenal" və "Çelsi" komandalarından olan nümayəndələr Bakıya gələcəklər: "Biz hamımız Azərbaycanın rəsmi qurumları ilə oyunun təşkil olunması istiqamətində sıx əməkdaşlıq edirik. Mən bizə bu işdə dəstək göstərən hər kəsə təşəkkür edir və hər iki komandaya bu önəmli gündə uğurlar arzulayıram".

Qeyd edək ki, Böyük Britaniya Xarici İşlər Nazirliyinin mayın 29-da Avropa Liqasının final oyununun Bakıda keçirilməsi ilə əlaqədar vətəndaşlarına terror təhlükəsinin olması barədə xəbərdarlıq etməsi birmənalı qarşılanmadı. Bir sıra müşahidəçilər, ictimaiyyət nümayəndələri iki ölkə arasında sıx iqtisadi əlaqələrin olması fonunda, Böyük Britaniyanın bu yanaşmaya düzəliş edəcəyi fikrində idi. Çünki məlum fikirlərin heç bir əsası yox idi. Bütün bu deyilənlərin fonunda, Böyük Britaniyanın Azərbaycandakı səfirinin açıqlamasını ekspertlər necə şərh edirlər?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Böyük Britaniyanın Azərbaycandakı səfiri Karol Kroftsun məlum açıqlaması müsbət dəyərləndirilməlidir:** "Mənə elə gəlir ki, bununla, bir növ, İngiltərə öz səhvini düzəltdi. Çünki Böyük Britaniya Xarici İşlər Nazirliyinin məlum tövsiyəsi maksimalist yanaşma idi və reallıqla uzlaşmırdı. Etiraf etmək lazımdır ki, Azərbaycanda bu kimi beynəlxalq tətbirlərin təhlükəsizliyi yüksək səviyyədə təmin edilir. İndiyə qədər sözügedən məsələ ilə bağlı hər hansı problem yaşanmayıb. Belə olan halda, hansısa iradlarla, tövsiyələrlə çıxış etmək məntiqli deyildi. Özü də bunu o ölkə edir ki, Azərbaycanın neft sektorunda böyük layihələrə sahibdir.

**Ölkənin enerji sektorunda uğurla fəaliyyət göstərir. Belə yanaşma ədalətli sayıla biilməzdi. Fikrimcə, Britaniya səfiri bu açıqlaması ilə incə diplomatik gediş edərək sözügedən məsələdə ədalətsiz yanaşmaya düzəliş etdi. O baxımdan, səfirin açıqlamasını müsbət dəyərləndirirəm".**

***Vidadi ORDAHALLI***

# "Təzadlar" qəzetini yenidən "Qara siyahı"ya qaytaran səbəblər...

## *Azərbaycan Mətbuat Şurasının "Təzadlar" qəzeti ilə bağlı araşdırma-məlumatı...*

**Azərbaycan Mətbuat Şurasının "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının və MŞ-nin Apelyasiya komissiyasının 1 mart 2019-cu il tarixdə keçirilmiş birgə iclasının rəyinə əsasən "Təzadlar" qəzetinin adı Şuranın "qara siyahı"sına daxil edilib. Bunun səbəbi "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərziliyə izah olunub.**

Eyni zamanda, ona "qara siyahı"dan çıxmağın prosedurları barədə də məlumat verilib. Təəssüflər olsun ki, A.Mərzili "Təzadlar" qəzetinin "qara siyahı"ya daxil edilməsini şərtləndirən nöqsanları aradan qaldırmaq, fəaliyyətində dönüş etmək əvəzinə fərqli yol seçib. O, Azərbaycan Mətbuat Şurasına və MŞ-nin İdarə Heyətinin ayrı-ayrı üzvlərinə qarşı şər, böhtan atmaqla məşğuldur. Maraqlıdır ki, A.Mərzili MŞ İdarə Heyətinin bəzi üzvlərini sərt tənqidə məruz qoyduğu halda, qurumun digər üzvlərinə, belə demək mümkünsə, "separat danışıqlar" təklif edir, bir növ, ikitirəlik yaratmağa köklənir.

Peşəkarlar, o cümlədən diqqətli oxucular MŞ-nin fəaliyyəti, onun ictimai qınaq forması kimi seçdiyi "qara siyahı" barədə məlumatlıdır. Hər kəs bilir ki, Şura medianın özünütənzimləmə qurumu qismində jurnalistlərin "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na (AJPDQ) nə dərəcədə riayət etmələrinə nəzarəti həyata keçirir, peşə prinsiplərini pozan KİV-lərə yol verdikləri yanlışlıqları xatırladır, nöqsanların aradan qaldırılması üçün tövsiyələr ünvanlayır. Qurumun AJPDQ-nın prinsiplərini düşünülmüş şəkildə, hansısa maraqlar naminə pozmuş KİV-lərə qarşı ictimai qınaq tədbiri - "xəbərdarlıq", "ciddi xəbərdarlıq" və nəhayət "qara siyahı"ya daxil etməkdir. "Təzadlar" ilə bağlı hər 3 prosedur tətbiq olunub: müxtəlif vaxtlarda yayımladığı və AJPDQ-nın prinsiplərini kəskin şəkildə pozulduğu məqalələrinə görə nəşrə xəbərdarlıqlar edilib. Əlbəttə, nəticə çıxarmadığı üçün onun adı "qara siyahı"dadır.

Tövsiyələri, xəbərdarlıqları saya salmayan A.Mərzili yalnız adının "qara siyahı"ya düşməsindən sonra prosesi ciddiyə alıb. Lakin yenidən yanlış addımlar atmaqda davam edir. Hazırda "Təzadlar" qəzetinin səhifələrində AJPDQ-nın prinsiplərini ciddi şəkildə pozan, paralel olaraq, MŞ-nin rəylərini şübhə altına alan məqalələr yayımlanır, oxucuları çaşdırmağa cəhd göstərilir. Ancaq cənab Mərzili istəsəydi, durum bu qədər kəskin həddə çatmazdı.




MŞ monitorinq qrupu "Təzadlar" qəzeti və A.Mərzili barədə vətəndaşlardan, ayrı-ayrı idarələrdən daxil olmuş şikayətlər üzrə təqribən 30-a yaxın məqaləni təhlil edib. Bəlli olub ki, bu yazılarda ayrı-ayrılıqda ən yaxşı halda 30-a qədər səhv var və bu səhvlərin hər biri narazılıq üçün əsas verir. Yanlış, yalan yazmaq, marağı tələb edəndə məsələləri şişirdib əndazədən çıxarmaq, şər və böhtan atmaq, istənilən vasitə ilə şəxsi maraqlarını təmin etməyə çalışmaq Asif Mərzilinin ənənəvi iş üslubudur. Belə yanaşma AJPDQ-ya, ümumilikdə jurnalistika prinsiplərinə ziddir.

Cənab Mərzilinin bu yanaşma tərzi "Təzadlar"ı dəfələrlə çətin duruma salıb. Bəzən belə dəst-xətt ölkəmizin maraqlarına zidd olub. Diqqət yetirək, "Təzadlar" qəzeti 2009-cu ildə Türkiyənin Azərbaycandakı səfiri Hulusu Kılıç barədə məqalə dərc etmişdi. Məqalə Mərzilinin həsəd və qısqanclıq hissləri zəminində yazılmışdı. Reallıq bu idi ki, keçmiş səfir həmin vaxtlarda redaksiyalara baş çəkir və kiçik xatirə hədiyyələri təqdim edirdi. "Təzadlar" isə bunu Səfirliyin guya mətbuatı ələ alması kimi göstərmişdi. Halbuki səfir "Təzadlar"ın redaksiyasını ziyarət etsəydi, bu bəsit motivə əsaslanmış iddia ortaya çıxmazdı. Başqa cür düşünmək üçün əsas yoxdur. Buna və digər məsələlərə görə MŞ qəzetin adını "qara siyahı"ya daxil etmişdi. Lakin beş illik fasilədən sonra Mətbuat Şurası A.Mərzilinin xahişini nəzərə alaraq "Təzadlar"ın adını "qara siyahı"dan çıxartdı. Həmin andan baş redaktor yenidən öz neqativ əməllərinə qayıtdı.

A.Mərzili və rəhbərlik etdiyi "Təzadlar" qəzeti ilə əlaqədar şikayətlər o qədər çoxalıb ki, onları araşdırmaq, təhlil etmək, səhvləri qruplaşdırmaq xeyli vaxt aparır. Təsəvvür edin ki, MŞ-nin Şikayətlər üzrə Komissiyasının son bir il müddətində keçirdiyi bütün iclasların gündəliyində "Təzadlar" qəzetindən şikayətin müzakirəsi yer alıb. Komissiyanın 20 noyabr 2018-ci il tarixli iclasında (BDU-nun dosenti Rəşid Cabbarovun şikayəti üzrə) və 14 dekabr 2018-ci il tarixli iclasında (Ağdam Rayon İcra Hakimiyyətinin Bakı şəhəri üzrə daimi nümayəndəliyinin rəhbəri Elxan Mahmudovun və "Psixologiya" jurnalının təmsilçisi V.Abduləzimovun şikayəti üzrə, "Kür-Xəzər" Xeyriyyə Cəmiyyəti ictimai birliyinin sədri Akif Kərimovun şikayəti üzrə) "Təzadlar" qəzeti və "təzadlar.az" saytı barədə şikayətlər araşdırılıb, şikayət doğuran materiallarda AJPDQ-nın balans prinsipinin pozulduğu müəyyən edilib. Bənzər xətaların təkrarlandığını nəzərə alaraq, "Təzadlar" qəzeti və "təzadlar.az" saytına MŞ tərəfindən xəbərdarlıq olunub. Tərəflər razılaşıblar ki, yazıda adı keçən və ittiham olunanların fikirlərinin açıqlanması üçün saytda şərait yaradılsın. Amma cənab Mərzili özünün də iştirakı ilə keçirilmiş bu iclaslardan sonra razılaşmaları pozub, şikayətçilərə qəzetdə fikirlərini çatdırmaq imkanı verməkdən yayınıb.

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının 15 yanvar 2019-cu il tarixdə keçirilmiş iclasında vətəndaş Quliyev Şakir Sabir oğlunun və Azərbaycan Dövlət İqtisad Universitetinin -UNEC-in professor/müəllimlərinin "Təzadlar.az" saytına qarşı şikayətləri araşdırılıb. Həmin müraciətlərdə iddia olunurdu ki, saytda Azərbaycan Dövlət İqtisad Universiteti-UNEC barədə qısa müddət ərzində 255-ə yaxın məqalə yayımlanıb. Məqalələr şər, böhtan xarakterlidir. Həmin 255 məqalədən yalnız 20-yə yaxını MŞ üzvlərinə təqdim edilmişdi.

Komissiya müəyyən edib ki, son vaxtlar "Təzadlar.az" saytı barədə MŞ-yə ünvanlanmış şikayətlər intensivləşib. Şikayət doğuran materiallarda AJPDQ-nın əksər prinsipləri pozulub. Komissiya üzvləri mübahisəli məqamların çoxluğunu, həm iddialarda, həm də verilən cavablarda boşluqların olduğunu, dəqiqləşdirmələrə ehtiyacın yarandığını nəzərə alaraq qərara gəliblər ki, qeyd edilən KİV-in fəaliyyətinin və şikayət doğuran materialların geniş araşdırılması üçün "Təzadlar" qəzeti və onun onlayn versiyası üzrə materiallar MŞ-nin monitorinq qrupuna yönləndirilsin. A.Mərziliyə də tövsiyyə edilib ki, kampaniya xarakterli yazıları bir həftə müddətində dayandırsın, monitorinq qrupunun mövcud məqalələr üzərində araşdırma aparmasına şəriat yaratsın. Baş redaktor bu şərtlə razılaşdığını bildirsə də, həmin günün ertəsi şərtləri pozub, Dövlət İqtisad Universitetinin rəhbərliyi ilə yanaşı, MŞ üzvlərini də tənqid hədəfinə çevirən yazılar yayımlamağa başlayıb. Şura üzvləri ilə "separat danışıq"ında isə etiraf edib ki, həmin məqalələrin sifarişçiləri onların yayımının bir həftəlik dayandırılması ilə razılaşmırlar və bu səbəbdən Şikayətlər üzrə Komissiyanın tövsiyələrini qəbul etməməyə məcburdur. Göründüyü kimi, "Təzadlar" qəzeti üçün "qara siyahı"dan başqa yol qalmır.

***Azərbaycan Mətbuat Şurasının katibliyi***

# Azərbaycanda icra başçılarının fəaliyyəti ilə bağlı qapalı araşdırmalar layihəsi...

***Abil Bayramov:*** *"Bu həm ictimai nəzarətin təmini, həm də yerli orqanların məsuliyyətinin artırılması baxımından faydalı ola bilər"*

**Bu ilin aprelində Rusiya Prezidenti Vladimir Putin regionlarda icra hakimiyyəti strukturları rəhbərlərinin fəaliyyətinin qiymətləndirilməsi metodları ilə bağlı fərman imzalayıb. Həmin fərmana görə, yerlərdə rəhbərlərin iş keyfiyyəti 15 kriteriya üzrə qiymətləndiriləcək.**



*"Prosesin daha şəffaf olması üçün bunu paralel olaraq bir neçə quruma həvalə etmək mümkündür"*

Bunların arasında əhalinin icra hakimiyyəti başçılarına etimad səviyyəsi, eləcə də həmin regionlardakı sosial-iqtisadi vəziyyət əsas yeri tutur.

Maraqlıdır ki, icra hakimiyyəti rəhbərlərinin fəaliyyətinin effektivlik səviyyəsi əhali arasında keçirilən qapalı, yəni, bir növ, gizli sorğuların nəticələri əsasında müəyyənləşdiriləcək.

Kremlə yaxın mənbələr artıq regionlarda keçirilən ilk qapalı sorğuların nəticələrini mətbuata sızdırıblar. RBC xəbər verir ki, sorğuların nəticələri əhalinin regionlarda icra strukturları başçılarına - qubernatorlar və respublika rəhbərlərinə münasibətini müəyyən etməyə imkan yaradır və kifayət qədər obyektiv təsir bağışlayır. Həmin nəticələr əsasında reytinq və antireytinq cədvəlini təqdim edən mətbu orqan xəbər verir ki, məhz bu nəticələr Kremlin region rəhbərlərinə gələcək münasibətini müəyyən edəcək.

Ekspertlər qeyd edirlər ki, bu qapalı sorğuların nəticələri yerlərdəki icra strukturları rəhbərlərinin gələcək taleyini həll edən əsas ölçü vahidinə çevriləcək. Əlbəttə, Rusiya idarəetmənin effektivliyi baxımından heç də dünyanın qibtə ediləsi ölkələri siyahısına daxil deyil. Ancaq, hər halda, obyektivlik sonadək qorunarsa, icra strukturlarının effektivliyini müəyyən edən qapalı sorğu üsulu kifayət qədər cəlbedici görünür. Analoji bir metodun Azərbaycanda da tətbiqi və belə qapalı sorğuların yerlərdə icra başçıları ilə bağlı aparılması hansı nəticəni verə bilər? Bunun idarəetmənin effektivliyinin artırılmasına nə kimi müsbət təsiri olar?

Sosial məsələlər üzrə ekspert Abil Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla bağlı ayrıca hansısa qanunun qəbul edilməsinə ehtiyac yoxdur: "Bizim mövcud qanunvericiliyimiz belə sorğuların keçirilməsinə tam imkan verir. Belə bir qiymətləndirmənin aparılması üçün regionlarda lazımi şərait yaradılmalıdır. Bu həm ictimai nəzarətin təmini, həm də yerli orqanların məsuliyyətinin artırılması baxımından faydalı ola bilər. Eyni zamanda, yuxarı icra hakimiyyəti orqanlarına yerli qurumların fəaliyyətinin obyektiv qiymətləndirilməsinə şərait yaradar. Çox yaxşı bir təcrübə olar. Hətta hesab edirəm ki, bunun tətbiqi çox zəruridir".

"Bu yöndə olan sorğunun şəffaf olması üçün işi hansı quruma həvalə etmək olar" sualına ekspertin cavabı belə oldu: "Ən yaxşı qiymətləndirməni müstəqil qurumlar apara bilər. Məsələn, heç kimdən asılılığı olmayan QHT-lər. Onların qiymətləndirməsi daha obyektiv ola bilər".

**"Həmin QHT-lərin yerli icra qurumları ilə sövdələşməyə gedə bilməsinin qarşısı necə alınmalıdır ki, prosesin şəffaflığı şübhə doğurmasın" sualına Abil Bayramov belə cavab verdi:** "Əslində, bir qədər inam olmalıdır. Biz hər detala şübhə ilə yanaşsaq, onda bütün qurumlarla bağlı belə şübhələr yarana bilər. Təbii ki, bu işi hər QHT-yə də həvalə etmək olmaz. Bu sahədə səriştəsi və cəmiyyətdə sanbalı olan QHT-lərdən söhbət gedir. Kriteriyalar elə müəyyənləşməlidir ki, ortaya obyektiv nəticələr çıxa bilsin. Yəni bu, sadə anket sorğusu kimi yox, bir qədər fərqli olmalıdır. Birinci növbədə qiymətləndirmənin metodologiyası hazırlanmalı və həmin prinsiplər üzrə qapalı sorğu həyata keçirilməlidir. Prosesin daha şəffaf olması üçün bunu paralel olaraq bir neçə quruma həvalə etmək mümkündür. Yəni işi yuxarı instansiya dövlət qurumları və QHT-lər birgə həyata keçirə bilər. Hesab edirəm ki, bura hətta ayrı-ayrı ali məktəbləri də cəlb etmək olar. Məsələn, İdarəetmə Akademiyası bu işi digər qurumlarla paralel şəkildə görə bilər. Onların sırf profilinə aid araşdırmadır. Bunu dar çərçivəyə salmaq lazım deyil. Bəllidir ki, 100 faiz düzgün qiymətləndirmə aparmaq mümkün olmur. Obyektiv kriteriyalara söykənib, düzgün metodologiyanı tətbiq etməklə doğru nəticəyə nail olmaq mümkündür".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan "Şərq tərəfdaşlığı" zirvəsində də Qarabağa tərəf statusu təxribatını davam etdirdi

***Məhəmməd Əsədullazadə:*** *"Onun fəaliyyəti və danışıqlar prosesində bəyanatları sülhə xidmət etmir"*

**Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan jurnalistlərə bildirib ki, Brüsseldə "Şərq tərəfdaşlığı"nın yubiley tədbirləri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə qısa söhbət edib, ancaq hələlik növbəti görüşlər üçün konkret planlar yoxdur.**



*"Paşinyanın separatçıların tərəf kimi danışıqlarda iştirakını irəli sürməsi, birmənalı şəkildə, substantiv danışıqlardan yayınmaq cəhdidir"*

Paşinyan görüşün yenidən baş tutması üçün hələlik proqram olmadığını, lakin danışıqlar prosesinin davam etdiriləcəyinə əmin olduğunu qeyd edib. "Hələlik heç bir plan yoxdur, amma əminəm ki, danışıqlar prosesi davam edəcək", - deyə o, jurnalistlərin "İlham Əliyevlə yenə görüş olacaqmı" sualını cavablandırarkən vurğulayıb.

O bildirib ki, Azərbaycan Prezidenti ilə qısa təmasda olub və "cari vəziyyəti" müzakirə edib.

Qondarma qurumun danışıqlar masasında iştirakı məsələsinə də geniş toxunan Paşinyan bunun baş verməyəcəyi təqdirdə münaqişənin həllinə nail olmağın mümkün olmayacağını bildirib.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Brüsseldə Avropa Şurası sədri Donald Tuskun adından verilən rəsmi ziyafətdə iştirak edib. Həmin ziyafətdə Nikol Paşinyan da iştirak edib.

O da məlumdur ki, Paşinyan separatçı qurumun danışıqlarda tərəf kimi iştirakını istəyir. Onun bu təşəbbüsü Azərbaycan tərəfindən qəbul edilməyib. Həmçinin, həmsədrlər onun bu istəyini dəstəkləməyiblər. Bütün bunlara baxmayaraq, Ermənistan Baş naziri hər dəfə bu məsələni gündəmə gətirməkdən çəkinmir. Dağlıq Qarabağla bağlı danışıqlar gündəmə gələn kimi, Paşinyan bu sərsəm ideyanı ortaya atır. Bu dəfə də Paşinyan öz "ənənəsinə" sadiq qalaraq, sözügedən məsələni qabardıb.

Ümumən, Paşinyanın bununla bağlı təxribatçı fəaliyyətini davam etdirməsini ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Paşinyanın bu cür yanaşması danışıqlara zərbə vurur:** "Ermənistanın Baş naziri Nikol Paşinyan Cənubi Qafqazda artıq qeyri-stabil siyasət aparan, demokrat maskasına girən şəxsdir. Onun Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi birbaşa danışıqlar prosesinə zərbə vurmaqdan ibarətdir. Brüsseldə Prezident İlham Əliyevlə görüşdən sonra Paşinyanın separatçıların tərəf kimi danışıqlarda iştirakını irəli sürməsi, birmənalı şəkildə, substantiv danışıqlardan yayınmaq cəhdidir. Separatçıların danışıqlarda iştirakı, ümumiyyətlə, münaqişənin həllinə zərbədir. Bu, işğal faktorudur və əsas işğalçı tərəf də Ermənistandır. Paşinyan çalışır ki, bu oyunla Ermənistanı işğalçı kimi göstərməsin. Hesab edirəm ki, Paşinyan qeyri-stabil şəxs olduğundan, onunla danışıqlar artıq bir mərhələdə bitməlidir. Onun fəaliyyəti və danışıqlar prosesində bəyanatları sülhə xidmət etmir. Qeyd edim ki, rəsmi Bakı ciddi ölçülər götürməli, işğalçı ilə konkret danışmalıdır. Paşinyan, ümumiyyətlə, Qarabağ məsələsində Moskvaya tabedir. Kremlin göstərişi ilə hərəkət edir.

**Ona görə də hər dəfə danışıqların pozulmasına yönəlik açıqlamalar verir. Fikrimcə, Paşinyan bundan sonra da destruktiv mövqe sərgiləyəcək".**

***Vidadi ORDAHALLI***

# Ermənistanın Azərbaycanla qırıcı təyyarə disbalansını Rusiya hesabına azaltmaq cəhdi iflasa uğrayır

**Ermənistan Azərbaycanla müqayisədə hərbi sahədə kifayət qədər geridə qaldığı bir vaxtda Rusiyadan silah almaqla bu istiqamətdə paritetı bərpa etməyə çalışır. Amma görünən budur ki, qeyd edilən səpkidə İrəvanın cəhdləri iflasa uğramaqdadır. Çünki Rusiya Ermənistana sadəcə köhnə silahlarını satır. Ermənistanın Rusiyadan yeni silahlar almaq istiqamətində də istəkləri iflasa uğramaqdadır.**

Bu, əsasən də Su-30SM qırıcı təyyarələri ilə bağlıdır. Xatırladaq ki, bu xüsusda daha əvvəl yayılan məlumatlarda bildirilirdi ki, Ermənistan Rusiyadan 100 milyon kredit müqaviləsi çərçivəsində Su-30SM təyyarələri almağa hazırlaşır. 2020-ci ildə 4 ədəd təyyarə Ermənistanın hərbi hava qüvvələrinin arsenalına qatılmalı idi. Bu, Ermənistan üçün "böyük üstünlük" hesab olunur, çünki işğalçı ölkənin hərbi hava qüvvələri nəinki regionda, ümumilikdə dünyada aşağı səviyyəlilər sırasındadır. İrəvanın cəmi 15 ədəd Su-25 təyyarəsi var və bu təyyarələr artıq sıradan çıxmış hesab olunur. Ermənistan hələ gəlib çıxmayan Su-30SM-lərə görə iddia edirdi ki, hərbi hava qüvvələri Azərbaycanla müqayisədə güclənəcək. Lakin indi bəlli olur ki, İrəvanın istəkləri reallaşmayacaq. Bu xüsusda "1-in.am" saytı yazır: "Əvvəlki məqalə və müsahibələrdə məlumat vermişdik ki, Ermənistan Silahlı Qüvvələrinin komandanlığı hərbi-hava qüvvələrimizi əsaslı yaxşılaşdırmağı planlaşdırır və artıq Rusiyadan çoxtəyinatlı Su-30SM qırıcılarının alqısı haqda anlaşma əldə olunub. Bu haqda Ermənistan müdafiə nazirinin mətbuat katibi və müxtəlif ekspertlər bildirib. İlkin anlaşmaya görə, ilk mərhələdə Ermənistana dörd ədəd qırıcı tədarük olunacaq, amma sonradan bunun sayı çoxalacaq.

Lakin Rusiyanın bəzi ekspertləri iddia edirlər ki, onlarda Ermənistan və Rusiya arasında Su-30SM qırıcılarının alqı-satqısı haqda saziş və ya ilkin razılaşma haqda məlumat yoxdur. Rusiya hərbi siyasətçilər Birliyinin eksperti Aleksandr Perenciyev belə bir fikir ifadə edərək deyib ki, söhbət İrəvanın yaxınlığındakı "Erebuni" aeroportunda yerləşən Rusiya aviabazasının həmin Su-30SM qırıcıları ilə yenidən silahlandırılacağından gedir: "Söhbət alqıdan deyil, Rusiyanın Ermənistandakı aviabazasının yenidən silahlandırılmasından gedir. Hələlik Ermənistana qırıcı satmaq söhbəti yoxdur. Bu məlumatların haradan yayıldığını bilmirəm. Yeri gəlmişkən, bu, Azərbaycanda əsəbi reaksiya doğurur. Amma bir də deyirəm, Su-30SM qırıcıları hələlik Ermənistana deyil, Rusiya aviabazasına tədarük olunur. Mən Ermənistan müdafiə nazirinin bəyanatından xəbərdaram, amma o, hələlik arzu olunanı gerçəklik kimi qələmə verir. Aydındır ki, bu, Ermənistanda yaxşı səslənir, hamı müdafiə nazirindən sitat gətirir, ona inanırlar, amma mən Rusiyadayam və bilirəm ki, bu hələ ki, sözdür - eynilə Türkiyənin bizdən Su-57 qırıcılarını almağa hazırlaşdığı bəyanatı kimi. Amma hələ heç kim qırıcıları nə Ermənsitana, nə də başqa kiməsə satmağa hazırlaşmır".



Qeyd edilməlidir ki, Rusiyanın "Erebuni" aviaparkının 18 ədəd MİQ-29 qırıcısının həmin sayda Su-30SM-ə dəyişdirildiyi haqda qeyri-rəsmi məlumatı Rusiyanın TASS agentliyi Ermənistan Müdafiə Nazirliyi bu məlumatı təsdiqləyəndən iki ay sonra yayıb. Biz Aleksandr Perenciyevlə bu durumu qeyd edərkən cavab verib ki, TASS-ın məlumatı "azdan-çoxdan mötəbərdir", amma Ermənistana təyyarə tədarükü haqda məlumatları təsdiq edə bilməz: "Mən hələlik bu məlumatı təsdiqləməyə hazırlaşmıram, çünki bu mənim üçün hər hansı bəlli qaynaqlar tərəfindən təsdiq edilməyib".

Rusiya hərbi mütəxəssisinin sözlərinə görə, "ümumiyyətlə, Rusiya müəyyən hərbi-siyasi yanaşma göstərir - hücum xarakterli texnikanı Ermənistana tədarük etmək niyyəti yoxdur. Mən bilirəm ki, əslində, təyyarələri Ermənistana tədarük etmək haqda qərar yoxdur. Deməzdim ki, bu yasaqlanıb, amma ən azı, dondurulub. Ermənistan KTMT üzrə müttəfiqimiz olsa da, Ermənistana hava hücumundan müdafiə (HHM) sistemi tədarük edə bilərik. İstənilən HHM sistemini. Burada hər hansı problem yoxdur. Amma zərbə, hücum xarakterli hərbi texnikanı Ermənistana tədarük etməyəcəyik. Bəli, bu, hərbi-siyasi yanaşmadır".

Bütün bunlar İrəvanın bir daha Azərbaycan qarşısında hərbi cəhətdən aciz durumda qalmaqda olduğunu göstərir. Onu da bildirək ki, Ermənistan Qarabağda baş verə biləcək müharibədə Azərbaycan qarşısında məğlub olacağını anlayır, 2016-cı ilin "aprel müharibəsi" bu təcrübəni gerçəkləşdirdi. Məğlubiyyətdən sonra Serj Sarkisyan hakimiyyəti Su-30SM təyyarələrini almaq və hərbi hava qüvvələrini gücləndirmək üçün Moskvanın qapısını döydü. İki ölkə arasında bağlanan müqavilədə 12 ədəd Su-30SM-in Ermənistana çatdırılacağı qeyd olunsa da, Moskva sonradan prosesi uzatdı və əsas səbəb kimi ermənilərin pulunun olmadığı göstərildi. Rusiya düşməni kimi tanınan Nikol Paşinyan hakimiyyətə gələndən sonra isə Moskva ümumiyyətlə işğalçı ölkəyə silah satışını təxirə saldı, yalnız Paşinyanın Kremldə prezident Vladimir Putinin önündə etdiyi xahişlərdən sonra 100 milyon dollarlıq kredit sazişi çərçivəsində silahların veriləcəyi haqda ehtimallar yarandı. Paşinyan isə ötən ilin iyununda Su-30SM-də çəkilmiş fotosunu paylaşmaqla bu təyyarələri almağa hazırlaşdıqlarını mesajını verdi. Amma mövcud repallıq tamam fərqli mənzərəni üzə çıxarır. İndilikdə Azərbaycan Cənubi Qafqazın hava məkanında mütləq üstünlüyə malikdir. Açıq mənbələrdə yayılmış məlumatlar son illərdə Azərbaycan hərbi hava qüvvələrinin arsenalına 47 döyüş təyyarəsi və 109 helikopterin daxil edildiyi, 30-dan çox PUA-nın alındığını göstərir. Xüsusilə, İsrail istehsalı olan Orbiter-2M, Aerostar, Hermes-450, Searcher və Heron tipli PUA-lar işğalçı ordunun kabusu hesab olunur. Həmçinin, Azərbaycanın müdafiə sənayesi yerli PUA-ları istehsal edir.

Erməni ekspertlər də etiraf edirlər ki, ümumiyyətlə, Azərbaycanın son dövrlər nümayiş olunan hava hücumundan müdafiə sistemləri və raket kompleksləri işğalçı Ermənistanı sözün həqiqi mənasında dəhşətə salır. Qarşıdakı dövr ərzində isə Azərbaycan bu üstünlüyünü daha da artıracaq.

***Tahir TAĞIYEV***



# ABŞ-ın təhdidləri işə yaradı - Hindistan Rusiyadan S-400 almaqdan imtina etdi

**ABŞ-ın sanksiya təhdidləri qarşısında geri addım atan Hindistan S-400 raketdən müdafiə sistemi almaqdan imtina edərək, əvəzində "Patriot" almaq üçün Vaşinqtonla danışıqlara başlayıb.**

Baki-xeber.com xəbər verir ki, Rusiya və Hindistan ötən il ABŞ-ın təhdidlərinə baxmayaraq, S-400-lə bağlı müqavilə imzalamışdı. 5,4 milyard dollar dəyərində olan anlaşma 5 S-400 batareyasının Hindistana göndərilməsini nəzərdə tuturdu. ABŞ isə təzyiqlərini daha da artıraraq Hindistanı cəzalandırmaqla təhdid edirdi.

**İndi isə bu təhdidlərin işə yaradığı görünür, Hindistan geri addım ataraq S-400 sistemləri almaqdan imtina edib. Üstəlik, Hindistan rəsmiləri "Patriot" və THAAD raketləri üçün ABŞ-la danışıqlarda ciddi irəliləyiş əldə etdiklərini söyləyiblər.**

**Yaxın Şərqdə hadisələrin gedişi artıq Azərbaycanın cənub sərhədlərində təhlükəli savaşın başlanmasının qaçılmaz olduğunu göstərir. Belə görünür ki, ABŞ İranla məsələni savaş yolu ilə həll etməkdə israrlıdır. Bunun üçün artıq ilkin hazırlıqlar da başlanıb. Elə bu fonda məlum olub ki, ABŞ Hərbi Hava Qüvvələrinin F-15 və F-35 təyyarələri Bəsrə körfəzinin hava məkanında İrana qarşı kəşfiyyat əməliyyatları aparır.**

# ABŞ İraqa müdaxilə etmiş əsgərlərin sayı qədər ordunu İranın üstünə göndərir

## *Ən müasir təyyarələrin kəşfiyyat müharibəsinə start verildi*




ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının (CENTCOM) mətbuat katibi Bill Urban bildirib ki, döyüş təyyarələri ABŞ qüvvələrini və mənfəətini ən yaxşı formada müdafiə etmək üçün körfəzə göndərilib. Qeyd edək ki, ABŞ ötən həftə İrandan gələ biləcək təhdidlərə qarşı tədbir görmək məqsədilə "USS Abraham Lincoln" təyyarə gəmisi ilə 4 nüvə potensiallı B-52 bombardman təyyarələrini körfəzə göndərmişdi. Pentaqon səbəb kimi İranın bölgədəki ABŞ hərbi qüvvələrinə qarşı hücuma keçmək niyyətini göstərmişdi. İndi isə "The New York Times" qəzeti Pentaqondakı və Ağ Ev administrasiyasındakı mənbələrə istinadən bildirir ki, ABŞ İranı "çəkindirmək" üçün Yaxın Şərq regionuna 120 minlik kontingent də göndərməyə hazırlaşır. Qəzetin yazdığına görə, müdafiə nazirinin səlahiyyətlərini icra edən Patrik Şanahan ötən həftə Yaxın Şərq regionuna 120 min hərbçinin göndərilməsini nəzərdə tutan planı təqdim edib. Ölkənin milli təhlükəsizliyi üçün məsuliyyət daşıyan məmurların sözlərinə görə, yeni plan prezidentin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Con Boltonun təzyiqi altında hazırlanıb. Qəzetin məlumatına görə, planda açıqlanan hərbi qulluqçuların sayı görüşdə olanlardan bir çoxunu şoka salıb, çünki 2003-cü ildə İraqa müdaxilədə təxminən bu qədər Amerika hərbçisi iştirak edirdi. Bu arada, prezident Donald Tramp özü jurnalistlərə bildirib ki, ona İran haqda "hansısa məlumatlar" daxil olub: "Onlar nəsə etsələr, bu ciddi səhv olacaq. Onlar nəsə etsələr, ciddi ziyan çəkəcəklər". İranın ünvanına daha bir hədə ABŞ dövlət katibi Maykl Pompeodan gəlib. O qeyd edib ki, İran Yaxın Şərqdə Vaşinqtonun maraqlarına zərbə vurmağa cəhd edərsə, ABŞ bu regiondakı hərbi qüvvələrini artıracaq: "Bizim məqsədimiz İran rəhbərliyinin davranışını dəyişməkdir. Biz ümid edirik ki, İran xalqı, nəhayət, layiq olduğu istəyinə nail olacaq. ABŞ və tərəfdaşlarının İrana cavabı aydındır. Biz müharibəyə çalışmırıq, amma 40 il ərzində ABŞ əsgərlərinin İran tərəfindən öldürülməsi, ABŞ obyektlərinə hücumlar, ABŞ əsgərlərinin ələ keçirilməsi bizə müdafiə olunmağımızla bağlı daimi xatırlatmadır. Bizim İrana hərbi cavab məsələsində səbrli olmağımız İran tərəfindən qətiyyətin olmaması kimi qəbul edilməməlidir. Digər tərəfdən, ABŞ İran tərəfinin təşəbbüsü ilə məsləhətləşmələrin keçirilməsinə hazır ola bilər".

Qeyd edək ki, ABŞ prezidenti Tramp da İran liderlərinin ona zəng etmələri və müzakirələr aparmaları gərəkdiyini açıqlayıb. Amma İran İslam İnqilabı Keşikçiləri Korpusu rəhbərinin siyasi məsələlər üzrə müavini Yadulla Cavani bunu istisna edir. O bildirib ki, ABŞ lideri Donald Trampın İran hökumətilə danışıqlar aparmaq istəməsi barədə bəyanatına rəğmən, İran ABŞ-la müzakirələrə hazırlaşmır: "İran amerikalılarla danışıqlar aparmayacaq. İran Amerikanı etibarsız ölkə hesab edir. ABŞ heç bir halda İrana qarşı hərbi fəaliyyət aparmayacaq". Belə vəziyyətdə İran həm də boş dayanmayaraq bölgədə hərbi qüvvə və texnikalarının sayını artırır. Eyni zamanda, Tehran ABŞ hərbçilərinin onlar üçün hədəf olacağını da açıq şəkildə bildirir. İranın Hərbi-Dəniz Qüvvələrlərinin komandanı, kontr-admiral Hüseyn Xanzadi bu fonda bildirib ki, ABŞ Yaxın Şərqi tərk etməlidir: "ABŞ Fars körfəzinə təyyarədaşıyan gəmisinin göndərilməsi haqqında danışıqlarla müharibə ehtimalını artırmağa çalışır. Amma ABŞ-ın Yaxın Şərqdəki mövcudluğunun sonu yaxınlaşıb". İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) briqada generalı Əmir-Əli Hacızadə də bildirib ki, Fars körfəzinə göndərilən Amerika təyyarədaşıyanı hədəfdir. Onun sözlərinə görə, göyərtəsində 40-50 təyyarə və 6 min hərbi qulluqçu olan təyyarədaşıyan İran üçün hədəfdir. Əmir-Əli Hacızadə daha əvvəl qeyd edib ki, Amerika hərbçilərinin regionda olması ciddi təhlükə təşkil edirdi, ancaq indi təhlükə imkana çevrilib. Əmir-Əli Hacızadə onu da bildirib ki, Vaşinqton konkret güc hərəkətlərinə təşəbbüs edərsə, İran ABŞ-ın başına zərbə endirəcək. İnqilab Qvardiyasının rəhbəri, general-mayor Hüseyn Səlami parlamentə bildirib ki, ABŞ regionda "psixoloji müharibə" başladıb. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif də vurğulayıb ki, Con Bolton Ağ Evdə milli təhlükəsizlik müşaviri təyin edilməzdən əvvəl də İranla nüvə sazişindən çıxmaq tərəfdarı olub və indi Tehrana qarşı daha aqressiv mövqedən çıxış edir.

Xatırladaq ki, bütün bunlara cavab olaraq İran prezidenti Həsən Ruhani hökumətin icrasında nüvə proqramı ilə bağlı Əhatəli Razılaşma Müqaviləsində üzərinə götürdüyü öhdəliklərin bəzilərini yerinə yetirməyəcəyini bildirib. O, uranın zənginləşdirilməsinin səviyyəsini artırmaqda davam edəcəklərini və ağır suyun satışını mayın 8-dən etibarən dayandırdıqlarını vurğulayıb. Hökumət başçısı bu aksiyanın 60 gün davam edəcəyini bildirib. Artıq rəsmi Tehran, ABŞ istisna olmaqla, "altılıq" ölkələrindən beşinə məsələ ilə bağlı məktub göndərib. Yeri gəlmişkən, Əhatəli Razılaşma Müqaviləsi 2015-ci il iyulun 15-də imzalanıb. 2018-ci il mayın 8-də ABŞ İranın nüvə proqramı üzrə müqavilədən çıxıb. Bununla bağlı qərarı prezident Donald Tramp imzalayıb. Həmin il yanvarın 9-da rəsmi Tehran, ABŞ müqavilədən çıxacağı təqdirdə, İranın da razılaşma ilə bağlı öhdəlikəri yerinə yetirməkdən imtina edəcəyini açıqlamışdı. Razılaşmaya əsasən,15 il ərzində İranın az zənginləşdirilmiş uran ehtiyatları 98 faiz azaldılaraq, ümumi çəkisi 10 tondan 300 kiloqrama endirilməlidi. Amma artıq bütün bunların üzərindən xətt çəkilib.

**İndi bütün dünya ABŞ-İran savaşının haçan başlayacağını gözləyir. Almaniya xarici işlər naziri Hayko Maas bu xüsusda qeyd edir: "Avropalı partnyorlarımızla birgə Yaxın Şərqdə Vaşinqton və Tehranın iştirakı ilə yeni münaqişə işartısının qarşısını almalıyıq. Almaniya avropalı müttəfiqləri ilə birgə əlindən gələni etməlidir ki, silahlı toqquşmanın baş verməsini əngəlləsin".**

***Nahid SALAYEV***

# "Şərq tərəfdaşlığı" zirvəsinin Azərbaycanın ərazi bütövlüyünü tanımadığı barədə yalan dünya boyu ifşa edildi

## *Avroittifaqın Azərbaycanla çoxdan həll edilmiş köhnə problemi yenidən aktuallaşdı - həm də yenə Azərbaycanın xeyrinə...*

**Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün 10 illiyinə həsr edilən və Brüsseldə keçirilən yubiley toplantısı zamanı diplomatik qalmaqal yaşandığı baədə məlumat yayılıb. Qərb mediasının verdiyi xəbərə görə, toplantıda Avropa İttifaqı ölkələrinin və "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrin xarici işlər nazirləri tərəfdaşlığın 10 illiyinə həsr edilmiş yekun bəyannamə imzalamalı idilər.**

Lakin sənəddə tərəfdaş ölkələrin ərazi bütövlüyünə dəstək ifadə olunmayıb və nəticədə Azərbaycan nümayəndə heyəti sənədi imzalamaqdan imtina edib.

Mənbələr bildiriblər ki, Azərbaycan nümayəndə heyəti yubiley bəyannaməsinin mətnindən narazılıq ifadə edib və onun dəyişdirilməsini istəyib. Çünki sənəddə ərazi bütövlüyü prinsipi dəstəklənmirdi. Lakin bəyannamənin mətnini dəyişdirməyiblər və əvəzində statusunu aşağı salmağa qərar veriblər. Belə ki, bəyannaməni nazirlər yox, təkcə Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federiko Mogerini imzalayıb. Bundan əlavə, bəyannamənin mətninin müzakirələri zamanı Gürcüstan və Ukrayna nümayəndə heyətləri də narazılıq ifadə ediblər. Çünki sənəddə Brüssel tərəfindən "Şərq tərəfaşlığı"ına daxil olan "ayrı-ayrı ölkələrin" Avropa İttifaqına üzvlük şəyləri tanınmır. Bununla belə, Tiflis və Kiyev bəyannamədə "Şərq tərəfdaşlığı"nın əvvəlki sənədlərinə istinad olunmasını kafi hesab ediblər.

Əslində, Brüsseldə nə baş verib, Azərbaycanın ərazi bütövlüyünün guya tanınmadığı barədə tam təxribat xarakterli feyk məlumatı kimlər yayıb? Ermənilər bu feyk məlumat ətrafında niyə xüsusi canfəşanlıq edirlər?

Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğunda fövqəladə və səlahiyyətli səfiri, Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov məsələyə aydınlıq gətirib.

Sual: - Bir sıra Azərbaycan kütləvi informasiya vasitələrində "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr olunmuş xarici işlər nazirlərinin toplantısı zamanı görüşün nəticələrini əks etdirən yekun sənədə ölkəmizin razılıq verməməsi haqqında məlumatlar yayılmış və Azərbaycanın veto hüququndan istifadə etməsi sənəddə ərazi bütövlüyünə istinadların olmaması ilə ələqələndirilmişdir. Digər tərəfdən, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Mogerini tərəfindən imzalanmış sənədə istinadən erməni mətbuatı canfəşanlıqla "Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü tanımadığını, tanımaq istəmədiyini və ölkəmizin təklikdə qalmasını" vurğulamağa çalışır. Bu barədə nə deyə bilərsiniz?

Cavab: - Öncə qeyd etmək istərdim ki, bu məsələ Azərbaycan Respublikasının xarici işlər naziri cənab Elmar Məmmədyarov tərəfindən "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr edilmiş yüksək səviyyəli konfrans zamanı ətraflı şəkildə cavablandırılıb

Öz tərəfimdən bildirmək istərdim ki, bu məlumatlar tamamilə təxribat xarakteri daşıyır. Belə ki, "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr olunmuş xarici İşlər nazirlərinin görüşü ilə bağlı yekun sənədin qəbul edilməsi, ümumiyyətlə, nəzərdə tutulmamışdı. Habelə, "Şərq tərəfdaşlığı"nın və Avropa İttifaqının bütün üzv dövlətləri, eləcə də Avropa institutlarının vahid sənədinin qəbul edilməsi ilə bağlı təklif irəli sürüldüyü zaman aparılmış müzakirələr prosedur xarakteri daşıyıb. Qəbul ediləcək sənədin yığcam, yoxsa əvvəlki sammitlərdə olduğu kimi geniş, əhatəli və bütün məqamlara diqqət yetirən bir sənəd olması ətrafında müzakirələr aparılıb.

Azərbaycan yekun sənəd qəbul ediləcəyi təqdirdə sözügedən bəyannamədə Avropa İttifaqının bütün üzv dövlətlərinin və "Şərq tərəfdaşlığı" ölkələrinin prinsipial məsələlərinin tam şəkildə əks etdirilməsinin tərəfdarı olub. Bu xüsusda bütün "Şərq tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü məsələsi Azərbaycan, eləcə də Gürcüstan və Moldova tərəfindən birlikdə təklif edilib. Sadəcə, sənədi müəyyən qədər qısaltmaq məqsədilə "Şərq tərəfdaşlığı" dövlətlərinin Avropa İttifaqının institutları, eləcə də Avropa İttifaqının üzv dövlətləri ilə müzakirələri zamanı əvvəlki sammitlərin sənədlərinə istinadlar olunması və bununla da sözügedən prinsiplərin sənəddə öz əksini tapması barədə razılıq əldə edilib.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Mogerini tərəfindən imzalanmış "sədrin yekun qeydləri" adlı sənəddə bütün əvvəlki sammitlərə istinadlar yer alır. Bir daha qeyd etmək istərdim ki, bütün "Şərq tərəfdaşlığı" sammitlərində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi birmənalı şəkildə tanınır.

Sözügedən sənədlə bağlı Azərbaycan tərəfindən Gürcüstan və ya Ukrayna tərəfi ilə xüsusi müzakirələr aparılmayıb. Yekunda bəyannamə olmayan bu qısa sənədin "sədrin yekun qeydləri" kimi öz əksini tapması ilə bağlı razılıq əldə edilib.

Yuxarıda sadalanan faktlara rəğmən, Azərbaycanın "ərazi bütövlüyünün tanınmamasının" erməni mətbuatında canfəşanlıqla bayram edilməsi tamamilə gülünc bir məsələdir. Qarşı tərəf sənədi diqqətlə oxuyarsa, aydın şəkildə əvvəlki sammitlərdə qəbul edilmiş sənədlərə istinadları birmənalı şəkildə görə bilər.

Digər tərəfdən, 6 may tarixində Slovakiya Respublikasının sədrliyi ilə Vışeqrad Qrupunun xarici işlər nazirləri və "Şərq tərəfdaşlığı" ölkələrinin Bratislava şəhərində keçirilmiş görüşündən sonra Vışeqrad Qrupu ölkələri tərəfindən bəyanat verilmiş və bu bəyanatda bir daha, hər zaman olduğu kimi, "Şərq tərəfdaşlığı" ölkələrinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı şəkildə tanınmışdır. Siz bu məlumatı Slovakiya Respublikasının Xarici İşlər Nazirliyinin internet səhifəsindən də əldə edə bilərsiniz. Sual oluna bilər, necə olur ki, bir neçə gün öncə qəbul edilmiş sənəddə Avropa İttifaqının üzvü olan 4 dövlət - Polşa, Macarıstan, Çexiya və Slovakiya bunu açıq və konkret şəkildə bildirir?!

İlk dəfə deyil ki biz bu kimi təxribat xarakterli və yanlış məlumatlarla üzləşirik. Çünki ermənilərin bütün Avropa institutlarında və beynəlxalq platformalarda fəaliyyəti yalnız yalana və qısamüddətli təxribat xarakterli təsirlərə və yalançı köklərə əsaslanır.




Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanın xarici siyasəti dövlətimizin milli maraqlarına və beynəlxalq hüququn prinsip və normalarına əsaslanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Brüsselə hazırkı səfəri bu yanaşmanın bariz nümunəsidir. Məlum olduğu kimi, səfər zamanı bir sıra yüksək səviyyəli görüşlər keçirildi və hazırda da "Şərq tərəfdaşlığı" üzrə onun 10 illiyinə həsr olunmuş tədbirlər davam edir. Bildiyiniz kimi, "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr olunmuş tədbirlərdə xarici işlər naziri Elmar Məmmədyarov da iştirak edir və aparılan bütün müzakirələr zamanı ölkəmizin milli maraqlarına əsaslanan mövqeyi səsləndirilir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın təcavüzü Qafqazda hətta Çinin də maraqlarına zərbə vurmağa başlayır

**Dağlıq Qarabağ münaqişəsinin mövcudluğunun bütün Cənubi Qafqaz, eləcə də MDB və şərqi Avropa məkanı üçün ciddi təhdid mənbəyi olması barədə Azərbaycan beynəlxalq ictimaiyyəti dəfələrlə xəbərdarlıq edib. Artıq dünya ictimaiyyəti, xüsusən də Qafqazda geosiyasi, geoiqtisadi maraqlarını reallaşdırmaq istəyən ölkələr də qəbul edir ki, həqiqətən Dağlıq Qarabağ konflikti böyük təhlükə mənbəyidir.**

Eyni zamanda, məhz bu münaqişə regionda daha böyük və genişmiqyasıl transmilli layihələrin həyata keçməsində də ciddi təhdidlər yaradır. Bu məsələ Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov tərəfindən Brüsseldə yenidən diqqət mərkəzinə çatdırılıb.

Nazir diqqətə çatdırıb ki, Dağlıq Qarabağ konfliktinin həll edilməməsi regional potensialın tam açılmasına ciddi maneə olaraq qalır: "Bəzi regional perspektivlər, o cümlədən qarşılıqlı fəaliyyət, ticarət layihələri və digər təşəbbüslər həll edilməmiş konfliktlərin əsiri olaraq qalır. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsi daha böyük səviyyəli regional əməkdaşlığın əldə edilməsi üçün maneə yaradır. Biz gərək regionun potensialını tam açaq". Beləliklə, Azərbaycan münaqişənin həlli ilə regionda daha böyük əməkdaşlığın qurulmasında maraqlı tərəf qismində çıxış etdiyini açıq şəkildə bəyan edir. Sadəcə, Ermənistanın mövqeyi üzündən məsələnin həlli uzanır və bu, regionda maraqlı tərəflərin niyyətlərinin uğurla reallaşmasına da ciddi əngəl yaradır. Halbuki, regionda ABŞ və Avropanın, eləcə də Rusiyanın, hətta artıq Çinin çox ciddi maraqları mövcuddur. Sadəcə, bu maraqların reallaşmasında ən böyük əngqələrdən biri məhz Qarabağ münaqişəsidir. Elə bu səbəbdən Qərb ölkələri, hətta Rusiya kofnliktin mümkün qədər tez həllində maraqlı olduqlarını artıq açıq şəkildə vurğulayır. Bunu Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Mixail Şvıdkoy da təsdiq edir: "Rusiya istəyir ki, Azərbaycan və Ermənistan arasında olan bu münaqişə bu və ya digər formada həll olunsun. Vacibdir ki, hər iki ölkənin ziyalıları xalqları sülhə çağırsınlar. Çünki sadə insanın deyə bilmədiyini, cəmiyyətin fikrini məhz ziyalılar formalaşdırır. Çox zaman elə ziyalılar tərəfindən də müharibə çağırışları olur. Dağlıq Qarabağ münaqişəsi də hansısa mənada özünə Ermənistan ziyalıları tərəfindən mövqe qazanmışdı. Ona görə də çox vacibdir ki, ziyalılar öz sözlərini desinlər, izah etsinlər ki, hadisələr bundan sonra necə inkişaf edə bilər. Cənubi Qafqazda, Azərbaycan və Ermənistan arasında sülh Rusiya üçün ən yüksək qazancdır. Bu gün Azərbaycan rəhbərliyi bu vəziyyətdən çıxmaq, münaqişəni həll etmək üçün çox şey edir. Bilirsiniz, bütün müharibələr əvvəl-axır sülhlə nəticələnir. Biz bir-birimizin gözlərinin içinə baxmağı öyrənməliyik. Çünki bir yerdə yaşamağa məcburuq. Rusiyanın bu məsələdə mövqeyi sadədir. Bu binada mənim, Rusiya XİN rəhbəri Sergey Lavrovun ümumi mövqeyi var. Biz hər hansı bir köməyi göstərməyə hazırıq. Lakin bunun üçün real formatı anlamaq, başa düşmək lazımdır. Ümid edirəm ki, iyun ayının əvvəlində Ermənistandan olan həmkarlarımla danışıqlar aparacağam. Ancaq bundan sonra Azərbaycandan olan həmkarlarım üçün nəsə formalaşdıra bilərəm. Bu məsələdə Azərbaycan tərəfinin mövqeyinin birmənalı olduğunu bilərəm. Azərbaycan rəhbərliyi, prezident İlham Əliyev bu problemin real nizamlanmasına niyyətlidir". Onun sözlərinə görə, münaqişənin həlli regionda əməkdaşlığa yeni nəfəs gətirəcək, qarşılıqlı əlaqələrin inkişafına mühüm təkan verəcək. Sadəcə, bunun reallaşması üçün Ermənistanın müvafiq addımlar artması vacibdir. Çünki Mixail Şvıdkoyun özünün də dediyi kimi Azərbaycan rəhbərliyi məsələnin həllində maraqlıdır və bunun mümkün qədər tez həyata keçməsini istəyir.

İndilikdə Bakının başlıca məqsədlərindən biri də budur ki, regionda maraqlı dövlətlər, o cümlədən də Rusiya məsələnin çözümü üçün Ermənistana real təzyiq göstərsin. Hazırda, sadəcə, münaqişənin həlliən çağrışlar olur, Bakı isə bu çağrışların real ıddımlarla müşayiət olunmasını istəyir. Rusiyalı politoloq Aleksey Fenenko tezliklə belə təzyiqlərin olmasını istisna etmir. O, ilk növbədə Kremlin özünün İrəvana müəyyən təzyiq rıçaqlarını işə salmasını mümkün sayır. Ekspert bunu regionda Rusiyanın maraqları, eləcə də İrəvanı cəzalandırmaq tədbirləri fonunda izah edir: "Faktdır ki, Ermənistanda hakimiyyətə Nikol Paşinyanın gəlişindən sonra Rusiya - Ermənistan münasibətlərində müəyyən soyuma hiss olunur. Rusiyanın siyasi "isteblişment"i Ermənistanın yeni siyasi elitasına etibar etmir. Dmitri Medvedyev və Nikol Paşinyan arasında keçirilən son görüş bunun bariz nümunəsidir. Rusiyada Ermənistandakı yeni hakimiyyətə ehtiyatla yanaşırlar. Ötən il ərzində Moskva rəsmi İrəvandan bir dostyana jest belə görməyib. Paşinyan vaxtaşırı Rusiya ilə tərəfdaşlıq və dostluqdan dəm vurur. Bununla belə, Ermənistan NATO ilə tərəfdaşlıq üzrə bütün proqramları qoruyub saxlayır və onların genişləndirilməsi ilə bağlı danışıqlar aparır. Ermənistanın və Avropa İttifaqı arasında 2017-ci ilin dekabr ayında imzalanmış assosiasiya haqda müqavilə hələ də qüvvədədir və bu sənəd, öz növbəsində, Avrasiya İqtisadi Birliyi çərçivəsində qəbul olunmuş vahid gömrük tarifləri üzrə siyasətlə ziddiyyət təşkil edir. Ermənistan ötən ilin sentyabr ayından etibarən faktiki olaraq KTMT-nin işinə əngəl yaradır. Artıq Belarus və Qazaxıstan tərəfləri də bununla bağlı narazılıq ifadə edib.

Baş nazir Paşinyan vaxtaşırı əksəriyyəti NATO üzvü olan Avropa İttifaqı ölkələrinə baş çəkərək, onların Qarabağ münaqişəsinin nizamlanması prosesində iştirakının genişləndirilməsi ilə bağlı və ya sadəcə, Ermənistanla hərbi tərəfdaşlıq üzrə danışıqlar aparır. Moskva isə bundan narahatdır, onlar Paşinyanın Ermənistanın siyasi kursunu tamamilə Qərb istiqamətində yönləndirəcəyindən, sonuncunun isə İrəvanın anti-Rusiya strategiyasına xeyir-dua verəcəyindən ehtiyat edir". Ekspert bütün bunların Rusiyada ciddi narahatlıq yaratdığını qeyd edir: "Digər tərəfdən, Rusiya artıq Qarabağ münaqişəsinin həllində müəyyən irəliləyiş istəyir. Ən azı o baxımdan ki, regionda əsas aparcı dövlət olduğuun göstərsin. Eyni zamanda, Rusiya regional bağlı yeni geoiqtisadi yanaşmasında da münaqişənin həllini istəyir. Sadəcə, Ermənistan buna maksimal dərəcədə maneə yaratmağa can atır". Onun sözlərinə görə, Moskva İrəvanı Qarabağ kartı ilə cəzalandırmaqda artıq maraqlı tərəfə çevrilib: "Çünki Moskva indiki şəraitdə İrəvanın Avrasiya İqtisadi Birliyinin sıralarını tərk edəcəyindən ehtiyat edir. Belə bir gedişat yeni yaranmış təşkilata ağır zərbə olar. Kreml eyni zaman Ermənistanın hərəkətlərinin KTMT-nin təməllərini sarsıda biləcəyindən ehtiyat edir. Ölkə, bundan əvvəl də dediyim kimi, KTMT-nin işini əngəlləyir. Məhz bu durumda Qarabağ cəbhəsində Ermənistanı sarsıdacaq dəyişikliklərin olması Paşinyan iqtidarının sonunu gətirə bilər. Rusiya artıq bu məsələdə maraqlı tərəf kimi görünür".

Ekspert Qarabağ münaqişəsinin nizamlanmasında İrəvanın indiki mövqeyinin də Moskva tərəfindən xoş qarşılanmadığını qeyd edir: "Baş nazir Paşinyan daima Qarabağ münaqişəsinin nizamlanma yollarından söz açır. Hansısa yolları axtarmaq nəyə lazımdır axı? 2016-cı ilin iyun ayında Peterburqda Rusiyanın vastiəçiliyi ilə münaqişənin sülh yolu ilə nizamlanması üzrə ilkin addımlardan ibarət plan razılaşdırılıb. Söhbət, xüsusilə Qarabağ ətrafı yeddi (2+5 formulası ilə) Azərbaycan rayonunun hərbsizləşdirilməsindən gedir. Altında Ermənistanın imzası olan bu plan niyə də gerçəkləşdirilməsin? Paşinyan özünü elə aparır, sanki belə bir plan heç olmayıb. Onda İrəvan imzanı geri götürüb, razılaşmadan imtina etməlidir. Yox, Paşinyan onunla razılaşırsa, onun Qarabağ problemi üzrə yeni sənəd ərsəyə gətirmək üçün nədən ABŞ və Fransa ilə danışıqlar apardığı aydın deyil. Beləcə, zərbə altında Rusiya diplomatiyası qalır: çünki Ermənistan Rusiyanın KTMT üzrə müttəfiqi ola-ola Moskvanın vasitəçiliyi ilə münaqişənin nizamlanmas üzrə hazırlanmış plana məhəl qoymur".

Hazırda əksər ekspertlər hesab edir ki, prosesdə hər hansı irəliləyiş olmasa, münaqişə daha da kəskinləşəcək. məslənin bu tərəfinə nəzər salan Aleksey Fenenko qeyd edir: "Hələ ki, Dağlıq Qarabağda hərbi münaqişə perspektivi o qədər də böyük deyil. Ancaq perspektiv olaraq belə bir variantı istisna etmək olmaz. Paşinyan danışıqlar prosesinə qondarma "Dağlı Qarabağ hökuməti"dən nümayəndə heyətinin qoşulmasına israr edir, bu isə Azərbaycan üçün yolverilməzdir. Bu danışıqlar prosesinin iflasına səbəb olsa, təmas xəttində yeni toqquşmaların meydana gəlməsinə yol aça bilər. Ermənistanda çoxları KTMT-nin 2016-cı ilin oktyabr ayında İrəvanda keçən sammitində qəbul olunmuş qərarından narazıdır. Belə ki, həmin sənədə göə, KTMT-in təhlükəsizlik qarantları yalnız Ermənistan Respublikasına şamil olunur, Dağlıq Qarabağa yox (Yeri gəlmişkən, bu məqam 2018-ci ilin may ayınd Ermənistanda "rəngli inqilaba" təkan vermiş nüanslardan olub).

Paşinyan hökuməti NATO ilə hərbi əməkdaşlığın inkişaf etdirilməsi hesabına situasiyanın balanslaşdırılması, hətta ABŞ-ın simvolik hərbi iştirakı variantını nəzərdən keçririr. Ancaq bu, Türkiyə və İran üçün yolverilməzdir, Rusiya üçün də təhlükəlidir, KTMT-nin qorunub-saxlanılması perspektivi baxımından. Onra görə Rusiyada çoxları Paşinyana dərs verməyin vaxtının çatdığını düşünür".

Ümumiyyətlə, hesab edilir ki, yaxın tezlikdə Moskva, eləcə də Qərb ölkələri İrəvanın Qarabağ məsələsinəd müəyyən gedişlər etməsi üçün Ermənistana təzyiqlərini artıracaq. Bu, həm də Azərbaycan diplomatiyasının uğurlu gedişlərinin nəticəsi kimi qəbul olunur. Çünki Bakı Qafqazı beynəlxalq miqyasda əməkdaşlığın əsas ünvanlarından biri qismində görmək istəyir. Bunun əsas şərtlərindən biri isə Qarabağ münaqişəsinin həllidir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Əhliman Əmiraslanov pasiyent hüquqları barədə qanunu yenidən gündəmə gətirdi...

**"Milli Məclisin Səhiyyə komitəsində pasiyentlərin hüquqlarının qorunması ilə bağlı qanun hazırlayırıq. Bunun üzərində iş gedir. Yaxın vaxtlarda bu qanun layihəsi Milli Məclisdə dinləmələrə çıxarılacaq". Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov media nümayəndələrinə açıqlamasında deyib.**



*"...tibb işçilərinin də hüququ qorunmalıdır"*

Komitə sədri bildirib ki, bu qanunun uzun illər gecikməsinin səbəbi vardı: "Bu da İcbari Tibbi Sığorta sisteminin həyata keçirilməməsi ilə bağlıdır. Bildiyiniz kimi, 2020-ci ildən ölkəmizdə icbari tibbi sığorta sisteminə keçiləcək. Məhz "İcbari tibbi sığorta haqqında" Qanunda çox geniş dəyişiklik etdik. Bu, 20 il bundan qabaq qəbul olunmuş qanundur".

Komitə sədri pasiyentlərin hüquqlarından danışarkən tibb işçilərinin də hüquqlarının vacibliyini vurğulayıb: "Hesab edirəm ki, "Pasiyentlərin hüquqları haqqında" qanun layihəsi mütləq qəbul olunmalıdır. Ancaq burada bir məsələ var. "Pasiyentlərin hüquqları haqqında" qanun layihəsini qəbul edərkən tibb işçiləri haqqında da fikirləşməliyik. Ola bilsin ki, bu, "Pasiyentlərin hüquqları haqqında", ya da "Pasiyentlərin və tibb işçilərinin hüquqları haqqında" qanun layihəsi olsun. Əvvəllər təkcə "Pasiyentlərin hüquqları haqqında" qanun layihəsinin qəbulu nəzərdə tutulmuşdu. Ona görə də hazırda "Pasiyentlərin və tibb işçilərinin hüquqlarının qorunması haqqında" qanun layihəsi müzakirə olunur".

Qeyd edək ki, ölkələrin bir çoxunda pasiyent hüquqları, eləcə də pasiyent və həkim münasibətlərini tənzimləyən qanunlar var. Bu qanunvericiliyə görə, səhlənkarlıq, məsuliyyətsizlik faktı təsdiqləndikdən sonra məhkəmə qərarı ilə həmin tibb işçisi cəzalandırılır. Bu cəza müxtəlif formada olur, həkimlik fəaliyyəti dayandırılır, yaxud xidmət göstərməkdən məhrum edilir, xəstəyə dəymiş maddi və mənəvi ziyan təzminat şəklində ödənilir, ölüm faktı varsa, həkim müəyyən zaman içində azadlıqdan məhrum edilir.

Ekspertlər də Azərbaycanda "Pasiyentlərin hüquqları haqqında" qanun layihəsinin qəbul olunmasının vacib olduğunu düşünürlər.

*Rasif Bağırov: "Pasiyentlərin hüquqlarının qorunması haqqında qanunun qəbul olunmasına ehtiyac var"*

**Tibbi ekspert Rasif Bağırov bildirdi ki, pasiyentlərin hüquqlarının qorunması haqqında qanunun qəbul olunmasına ehtiyac var:** "Belə bir fikir formalaşır ki, adıçəkilən qanun tək xəstələrin hüquqlarını qoruyacaq, həkimlərin isə əleyhinə olacaq. Ancaq bu belə deyil. Pasiyentlərin hüquqlarının qorunması ilə yanaşı, tibb işçilərinin də hüququ qorunmalıdır. Eyni zamanda, pasiyentlərin hüquqlarının qorunması icbari tibbi sığortaya bağlı məsələdir. İcbari tibbi sığorta işə düşməyincə, bunu etmək olmazdı. Məlumdur ki, icbari tibbi sığorta 2020-ci ildən tətbiq olunacaq. Ona görə də Səhiyyə komitəsinin iş planına "Pasiyent hüquqları haqqında" qanun layihəsinin işlənməsi ilə bağlı məsələ salınıb".

Ekspert onu da vurğuladı ki, pasiyentin hüquqlarının qorunması ilə əlaqədar dünya ölkələri "Pasiyentin hüquqları haqqında Avropa Xartiyası", "Pasiyentin hüquqlarının təminatına yardım haqqında bəyannamə", "Pasiyentin hüquqları haqqında Lissabon bəyannaməsi" və s. kimi mühüm əhəmiyyət kəsb edən sənədlər qəbul edib. Onun sözlərinə görə, dünya ölkələrində pasiyent-həkim münasibətlərinin tənzimlənməsi üçün fərqli təcrübələr var. Yunanıstan, İslandiya, İsrail, Litva, Finlandiyada bu sahədə ayrı qanun qəbul edilib, bir qrup ölkədə əhalinin sağlamlığı haqqında qanunda pasiyentlərin hüquqlarının müdafiəsi ilə bağlı müddəalar əksini tapıb.

***Günel CƏLİLOVA***

# Bakıətrafı bina həyətləri və ara yollarının işıqlandırılması problemi yenidən gündəmdə...

**Bakı qədim şəhər olmağı ilə yanaşı, bütün dövrlərdə müasirliyilə də seçilən məkandır. Müasir dövrdə yeni-yeni yollar, magistrallar, körpülər inşa olunur. Təbii ki, bunlar alqışlanası bir haldır. Lakin zaman-zaman üstündə dayandığımız problemlər də var ki, bunların həlli olduqca asan bir prosesdir.**

*"Zəif işıqlandırma mərkəzi rayonlara şamil olunmasa da, Bakıətrafı qəsəbələrdə uzun illərdir problem kimi qalır"*



Belə problemlərdən çoxu da, demək olar ki, artıq həll olunub. Məsələn, əvvəllər işıq dirəksiz olan yollarda, küçələrdə artıq bəzəkli və müasir işıq dirəkləri quraşdırılıb. Çox təəssüf ki, quraşdırılan işıq dirəklərinin xeyrini kimlərinsə məsuliyyətsizliyindən görmək olmur.

Danılmaz faktdır ki, Bakının mərkəzi hissəsində küçələr sutkanın qaranlıq saatlarında işıqlandırılsa da, ətraf ərazilər gecələr zülmətə qərq olur. Yaşayış məntəqələrinin yaxınlığında, piyadaların və avtomobillərin intensiv hərəkət etdiyi yollarda axşam saatlarında əksər hallarda ya işıqlandırma olmur, ya da o qədər zəif təşkil olunur ki, elektrik lampaları asıldıqları dirəkləri çətinliklə işıqlandırır.

Qeyd etdiyimiz kimi, bəzən mərkəzi küçələrdə, əksər hallarda isə mərkəzi hissələrdən kənarda, əsasən Binəqədi, Əhmədli, Yeni Günəşli, Bakıxanov və digər qəsəbələrdə küçə fənərlərindən istifadə edilmir.

Adətən belə addımın qənaət məqsədi daşıdığı güman edilsə də, bu amil həm də bir tərəfdən həmin ərazilərdə cinayət hadisələrinin, piyada ölümü, yol-nəqliyyat hadisələrinin, xüsusilə də soyğunçuluq hallarının yaşanmasına rəvac verir. Dünyanın inkişaf etmiş şəhərlərində, xüsusən şəhər mərkəzindən kənar qəsəbələrin işıqlandırılması, həmin ərazilərdə elektrik dirəkləri və digər işıqlandırma vasitələrinin bərabər paylanması kimi amillərə xüsusi diqqət yetirilir.

Şəhər sakinlərinin, o cümlədən, sürücülərin ən çox şikayət etdiyi hallardan biri də küçələrin işıqlandırılmaması ilə bağlıdır.

Bakıətrafı ərazilərin, ara yolların, küçələrin gecə vaxtı nə səbəbdən işıqlandırılmamasının səbəbini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

*Azər Allahverənov: "Yol-nəqliyyat hadisələri və piyada vurulması əksər hallarda işıqlandırma zəif olan ərazilərdə baş verir"*

**Yol hərəkəti üzrə ekspert Azər Allahverənov bildirdi ki, statistikaya əsasən, yol-nəqliyyat hadisələri və piyada vurulması əksər hallarda işıqlandırma zəif olan ərazilərdə baş verir:** "Zəif işıqlandırma mərkəzi rayonlara şamil olunmasa da, Bakıətrafı qəsəbələrdə uzun illərdir problem kimi qalır. İşıqlandırma məsələləri aktual olduğuna görə yolların işıqlandırma məsələsi dövlət proqramına salınıb. Ötən ilin dekabr ayında Prezident "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Proqrama 5 il ərzində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutan müddəalar daxildir. Onların arasında ən vacib müddəalardan biri işıqlandırma ilə bağlıdır. Proqramda avtomobil yollarında müasir standartlara cavab verən süni işıqlandırma sistemlərinin, işıqqaytarıcı yol nişanları və vasitələrinin quraşdırılması, həmçinin, regionlarda yolların işıqlandırılması məsələləri öz həllini tapmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, proqramda, həmçinin, 5 il ərzində Bakı şəhərində əlavə süni işıqlandırma sistemlərinin tətbiqi və alternativ enerji mənbələrindən geniş istifadə olunması məsələsi öz əksini tapıb: "Hazırda Azərbaycanda bəzi ərazilərdə günəş batareyaları var, ola bilər ki, alınan enerji hansısa küçələrin işıqlandırılmasına yönləndirilsin. Amma bu məsələ vahid kompleks şəkildə həll edilməlidir Belə olsa, enerji məsrəflərinin qarşısını ala bilər".

A.Allahverənov təklif edir ki, müxtəlif ünvanlar üzrə monitorinqlər keçirilsin. Həm ekspertlər, həm də aidiyyəti strukturların iştirakı ilə işçi qrup yaradıla bilər. İşçi qrup monitorinqlər apararaq müəyyən edə bilər ki, hansı ərazilərdə işıqlandırma zəifdir. Həmin ərazilərdə təcili və təxirəsalınmaz işlər həyata keçirilə bilər.

***Günel CƏLİLOVA***

# "Sizə sevgimiz sonsuzdur..."




**Uzun müddətdir ki, qardaş Türkiyədə yaşayıram. Burda insanlardan gördüyüm diqqət, qayğı, sevgi qəlbimi riqqətə gətirir.**

Qardaş Türkiyənin "Can Azərbaycan" sevgisini bu məmləkətin hər qarışında hiss edib duyduqca Atatürkün illərin o üzündən boy verən məşhur sözlərini xatırlayıram: "Azərbaycanın sevincı bizim sevincimiz, kədəri bizim kədərimizdir". Düşünürəm ki, hər bir Türk övladının bu sevgini qanında, canında yaşatması həm də aydın sabahlarımızdan xəbər verir. Bu yaxınlarda ailəmizdə baş verən bir hadisə zamanı bizi bir-birimizə bağlayan bu sevginin nə qədər böyük olduğunun canlı şahidi oldum.Türkiyəyə qonaq gələn qızım qəfil kəskin ağrılarla Aksaray Dövlət Egitim-Araşdırma xəstəxanasına aparıldı. Ətraflı müayinədən sonra təcili cərrahiyyə əməliyyatına alınan qızım Çinarə Türkiyənin tanınmış cərrahı, professor Önder Koçun sayəsində sağlamlığına qovuşdu, yenidən həyata qayıtdı, üzü güldü. Bu çətin anlarda bizə olan sevgini, şəfqəti, diqqət və qayğını sözlə ifadə etmək mümkün deyil. Mən "ağ xalatlı mələklər" adlandırdığım qadın uzmanlara, Aksaray Egitim-Araşdırma Xəstəxanasının həkimlərinə - baş həkim Hakan Bingölə, sağlıq hizmətləri və bakım müdürü Aysel Karanfilə, genel cərrah, uzman doktor İsmail Çakıra, doktor Ali Durana, kadın doğum uzmanı, professor-doktor Önder Koça, doğum salonu sorumlusu Eve Aynur Şene bu sevgi, bu şəfqət, bu sonsuz məhəbbət üçün ailəmiz adından dərin təşəkkürlərimi bildirirəm. Tanrı Sizləri qorusun!

***Elmira SƏBİYEVA***
***"Sağlam Həyat Naminə" jurnalının beynəlxalq şöbə müdiri***

# "İyirmi il rəhbər vəzifədə mürgüləyənlər, yarım milyona akt zalı təmir edənlər..."

## ADPU-dan yazanlara bir cavab...

**Son dövrlər bəzi kütləvi informasiya vasitələrində ADPU-ya qarşı aparılan qərəzli, məqsədli, bir mənbədən idarə edilən çirkin kampaniya məni təkcə ADPU-nun müəllimi kimi deyil, həm də bir vətəndaş olaraq narahat edir.Bu mənada istərdim ki, əməkdaşı olduğum universitetə, rektorumuz professor Cəfər Cəfərova ünvanlanan qarayaxmaya münasibət bildirim.**

Bəri başdan qeyd edim ki, söylədiyim fikirlər sifarişli deyil, hür iradəmin ifadəsidir...

**Hər şey 2016-cı ildən başladı...**

Səhər tezdən sadə geyimli bir müəllim ADPU-nun əsas girişindən əmin addımlarla universitetə daxil oldu. Ətrafında uzun qalstuklu, hər kəsə nifrətlə baxan, əlahəzrət rəhbəri "mühafizə" edən qorxulu adamlar yox idi...Hər kəs təəccüblənmişdi...Axı ADPU-nun müəllim və tələbələri uzun illər idi ki, rəhbərin "ordu" ilə gəzişinə, nadir hallarda görünməsinə alışmışdı...

**Gələn ADPU-nun yeni rektoru, professor Cəfər Cəfərov idi...**

Yeni rektorun gəlişi bəziləri üçün bir ümid, kimiləri üçün faciə,biriləri üçün isə fürsət idi..

Professor Cəfər Cəfərovun ADPU-ya təyinatı, elmi işini uğurla müdafiə edib müəllim işləmək istəyən lakin, "adamı" və "pulu" olmayanlar, rüşvətsiz imtahan verib müəllim olmağı arzulayanlar, rektoru görüb ona dərdini demək istəyənlər üçün bir ümid işığı idi...

Həqiqətən də, çox keçmədi ki, ADPU-da müəllim, laborant və digər vəzifələrdə çalışmaq istəyənlərə adalətli şərtlərlə müsabiqə yolu ilə seçilmək, tələbələrə rüşvətsiz imtahan vermək imkanı yaradıldı.

**Tədrisin keyfiyyətinin yaxşılaşdırılması, idarəçiliyin optimallaşdırılması, elmi mühitin canlandırılması naminə asaslı addımlar atılmağa başlanıldı...**

Bütün bunlara rəğmən əli pulla oynayanlar, xalaoğlu baş dispetçerlər, bircə ilə test cavablarını satıb son model maşın alanlar, "yuxarıdan" gəlmiş telefon zənginə görə universitetin koridorları ilə rəhbərin otağına qaçaqaça gedən ahıl dekanlar, iyirmi il rəhbər vəzifədə mürgüləyənlər,yarım milyona akt zalı təmir edənlər, yüz yaşı olan bir universiteti ailə müəssisəsinə çevirənlər, bankomatik işçilər, ölü canlar, on il test oyunundan millətin gələcəyini məhv edib "qazanan"lar yazayaza bitirə bilmədiyim kimsələr üçün isə yeni rəhbərin gəlişi əsil faciə idi..

İndi onların bir qismi "bəlkə də qaytardılar", bir qismi də "ötən günlərimi qaytaraydılar, gələn günlərimi qurban verərdim" havasını çalırlar...

**Yalanlarınız o qədər ağdır ki, deməyə söz tapmıram..**

Yazırsınız: "Doğrudur, bəzi obyektiv səbəblərlə əlaqədar olaraq universitetdə rüşvət problemi nisbətən həll olunub.Amma bu, heç də rektorun uğru hesab oluna bilməz.Çünki hazırda imtahanlar kompüter vasitəsilə götürüldüyündən,respublikamızın əksər ali təhsil müəssisələrində tələbə-müəllim təmasının qarşısı alınıb." Üç cümlə qurmusunuz, üçü də köməkçi nitq hissəsi ilə başlayır.Üçü də yanlışdır. Birinci cümləniz ona görə yanlışdır ki, ADPU-da tələbə ilə müəllim arasında rüşvət anlayışı nisbətən yox, tamamilə aradan qaldırılıb, cəhd edənlər universitetdən qovulur. İkinci cümləniz ona görə yanlışdır ki, universitetdə kök salmış rüşvətə məhz son üç ildə son qoyulub. Nəhayət, üçüncü cümləniz ona görə yanlışdır ki, son üç ildə ADPU-da imtahanlar yazılı qaydada aparılır.Əsas mənbədən,əsas nitq hissələri ilə başlayan, əsaslandırılmış xəbərlər qurun!

Yazırsınız ki, ADPU-da müəllimlər dünyasını dəyişdi. ADPU-da yüzlərlə insan çalışır,əməkdaşlarımızın müəyyən bir hissəsinin yaşı 70-dən yuxarıdır. Arasında elminə, şəxsiyyətinə hörmət etdiyim qocaman müəllimlərimin də olduğu bu in-



sanların bir qismi təqaüdə çıxmış,bir qismi dünyasını dəyişmiş, bir qismi fəaliyyətini davam etdirməkdədir.Belə insanların yaşaması və ya dünyasını dəyişməsi ilə rəhbər arasında əlaqə qura bilmə fantaziyanıza məəttəl qalmamaq mümkün deyil.

ADPU-da gedən ciddi kadr islahatları sizi əsassız yerə narahat edir. Ötən on il ərzində əyri yollarla başı pul qazanmağa qarışan, elmi, tədrisi unudan, yalnız rəhbərə baş əyməyi bacaran" baş"larla işləmək, islahat aparmaq, universitetin kadr hazlığında əsaslı dönüş etmək mümkün deyil. İndi o "baş"lar baş qaldırıb deyir ki, ADPU-da müəllim işləmək, saathesabı dərs demək, ailəmi dolandırmaq istəyirəm. Xub, yaxşı fikirdir. O zaman sizə bir neçə sualım var. Ey bir zamanlar adının, kabinetinin qarşısında "baş" yazılanlar, siz ötən illər ərzində elmlə məşğul oldunuzmu, elmi nəşrlərdə məqaləniz çap olundumu, elmi iş götürüb müdafiə etdinizmi? Saathesabı dərs demək istədinizmi? İstəmədiniz,çünki üç il öncə başınız "baş" olmağa qarışmışdı, işləriniz əyri yollarla "düz" gedirdi. İndi haqsız yerə döyməmdiyiniz qapı, atmadığınız iftira qalmayıbdır. Gah əsassız yerə milli kimliyinizi gözə soxur, gah da keçmişinizdən bixəbər sadə insanların hislərini istismar edirsiniz. Keçməyəcək!

Yazırsınız ki, rektor ADPU-nu dünya səviyyəsində təmsil edən nüfuzlu elm adamının əvəzinə həyat yoldaşının xalasıoğlunu, heç bir elmi dərəcəsi olmayan Arzu Daşdəmirov adlı birini dekan təyin edib. Mənbəniz kimi özünüz də məlumatsızsınız.Əvvəla, Azu Daşdəmirov fizika-riyaziyyat üzrə fəlsəfə doktoru-dur,dosentdir, gəncdir, yaradıcı və idarəçilik potensialına malik alimdir,ikincisi, o nüfuzlu elm adamınızın dekan olmadan Azərbaycan elmini dünya səviyyəsində təmsil etməsinə mane olanmı var? İyirmi il dekan olmaqmı olar?Bəlkə, ADPU-nun dekanı vəzifəsi o nüfuzlu elm adamının adına ömürlük bron edilib?

Məlumat üçün qeyd edim ki, son üç ildə ADPU-nun "Fizika və texnologiya", "Filologiya", "Tarix və coğrafiya" fakültələrində dekan seçkisi keçirilmiş, fakültənin professor-müəllim heyətinin etimadını qazanmış namizədlər dekan seçilmişdir və bu proses davam etməkdədir.

**Dəqiqləşdirilməmiş məlumatlarınız, ictimaiyyəti çaşdıran, qərəzli, iftiralarınız, birtərəfli "xəbərləriniz", şou xarakterli informasiyalarınız bununla bitmir...**

Bir neçə həftə öncə yazırsınız.."ADPU əməkdaşından qalmaqallı açıqlama"... xəbərinizi oxuyuram, məlum olur ki,gənc, subay əməkdaşımız Nazir Nağıyev şəxsi facebook səhifəsində 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları zamanı çəkdirdiyi bir neçə fotoşəkli yayımlayıb və müəyyən fikirlərini bildirib. Siz ondan şou-xəbər düzəldibsiniz. İndi nə deyirsiniz, ADPU əməkdaşının heç bir sosial həyatı, şəxsi düşüncəsi olmamalıdır? Halbuki Azərbaycan Respublikasının Konstitusiyasının 47-ci maddəsinin 1-ci bəndində yazılıbdır:"Hər kəsin fikir və söz azadlığı vardır.Yenə həmin Konstitusiyanın 32-ci maddəsinin 2-ci bəndində yazılır ki, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına,saxlanılmasına, istifadəsinə, yayılmasına yol verilmir. ADPU-da" qanunsuzluq" axtarışına çıxanlar, özünüzdən başlayın...

Professor Cəfər Cəfərovun sadəliyi,peşəkarlığı, universitetin müəllim və tələbə heyəti ilə birbaşa dialoqa girməsi, ünsiyyətdə olması, özü ilə əməkdaşları, tələbələri arasında sədd çəkməməsi, inanclı bir insan olması, dövlətinə,prezidentinə, Ümummilli lider Heydər Əliyev ideallarına sadiq olması, təhsilə qazanc gözü ilə baxanlarla mübarizəyə başlaması yeniliyə, inkişafa qarşı olan radikal qüvvələr, sözün hər mənasında üçüncü olanlar üçün isə suyu bulandırmağa fürsətə çevrildi...

Fikrimi Uca Türk xalqının ana kitabı olan "Kitabi-Dədə Qorqud" dastanında Dədə Qorqudun hikmətli sözləri ilə tamamlamaq istərdim..

Çalıb kəsər üz qılıncı müxənnətlər çalınca çalmasa yey..

Çala bilən igidə oxla qılıncdan bir çomaq yey..

Yalan söz bu dünyada olunca, olmasa yey...

***Bəhram Cəfəroğu***
***ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının baş müəllimi Filologiya üzrə fəlsəfə doktoru***

**Cəmiyyətdə elə hadisələr baş verir ki, həmin olayları sensasiya xatirinə tirajlamaq heç də bizə başucalığı gətirmir. Bəzi saytlar ucuz yolla oxucu, tamaşaçı kütləsi cəlb etmək üçün belə məlumatları sensasion başlıqlarla tirajlayırlar. Bu da, heç şübhəsiz, mediamızı addım-addım izləyən Ermənistan tərəfindən dərhal qeydə alınır və ermənilər tərəfindən Azərbaycan əleyhinə çevrilir.**

# Azyaşlı azərbaycanlıların oğurlanaraq zorlanması xəbərlərini tirajlayanlar erməni təbliğatçılarına fakt verir



*"Biz Ermənistana fürsət verməməliyik ki, onlar bizim qara obrazımızı cızmaq üçün mediamızdan, jurnalistlərimizdən istifadə etsinlər"*

## *Azər Həsrət: "... bu kimi informasiyaların tirajlanması erməni dəyirmanına su tökməyə xidmət edir"*

Bu günlərdə bəzi saytlar Bakıətrafı qəsəbələrdən birində 14 yaşlı qızın qaçırılaraq zorlanması barədə məlumat yayıblar. Bu hadisənin hansı şəraitdə baş verdiyi, həqiqətən də olub-olmadığı hələ məlum deyil. Əlbəttə, belə bir hadisə baş veribsə, ona hüquq müstəvisində qiymət veriləcək, günahkar cəzalandırılacaq.

Amma məsələ burasındadır ki, bizim bəzi saytlarda sözügedən hadisənin baş verdiyi iddia edilir. Onu da qeyd edək ki, Azərbaycanda tarixən qızqaçırma ənənəsi olub və bizim cəmiyyətdə bu kimi hallar artıq ənənə kimi qəbul edilib. Doğrudur, qanunvericilikdə bu kimi hallar konkret cinayət əməli kimi göstərilir. Bizdə qanunlarla ənənələr arasında fərqlərin olduğu məlumdur. Bəlkə də 14 yaşlı qız zorla qaçırılmayıb, bu hadisə sevgi, qarşılıqlı razılaşma əsasında həyata keçirilib.

Belə bir hadisənin saytlarda tirajlanması ermənilərin əlinə yeni fürsət verib. Bu gün artıq bütün erməni mediasında rus dilində Azərbaycanda 14 yaşlı qızın qaçırılaraq zorlanması barədə məlumatlar tirajlanır. Özü də konkret olaraq bu məlumatın tirajlandığı saytların adlarına istinad edirlər.

**Əməkdar jurnalist, tanınmış media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, mediamız tirajladığı hər bir xəbərə həssas yanaşmalıdır.** O hesab edir ki, mətbuat xüsusən azyaşlılarla bağlı xoşagəlməz məlumatları yaymaqda maraqlı olmamalıdır. "Burada söhbət yetkinlik yaşına çatmayanlardan gedirsə, bu barədə məlumat yayarkən təfərrüata varmaq doğru deyil. Çünki uşaqlarla bağlı informasiyalar yayarkən diqqətli olmaq lazımdır. Bu baxımdan, mən belə informasiyaların tirajlanmağının tərəfdarı deyiləm. Ümumiyyətlə, bu kimi hallarla bağlı mətbuatda hər hansı bir məlumatın yayılması, tirajlanması düzgün deyil. Bu şəxsi qənaətimdir. Əlbəttə, ortada hər hansı bir cinayət əməli varsa, yaxud qanun pozuntusuna yol verilibsə, bu barədə məlumat vermək olar. Ancaq biz bir sıra hallarda uşaqlarla bağlı məlumatların çox çılpaq şəkildə tirajlanmasının şahidi oluruq. Bəzi saytlarda uşağın adına, atasının adına, soyadına, ev ünvanına qədər məlumatlar yayılır. Halbuki, uşaqlarla bağlı informasiyalarda onların adlarının çəkilməsi yanlışdır və bu, qanunla yasaqdır. Buna əməl etməyən həmkarlarımız çoxdur. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, biz istəyiriksə cəmiyyətimizdə bənzər hadisələr təkrarlanmasın, bu informasiyaları yaymaqdan mediamız çəkinməlidir. Çünki pis örnəklər yolxucu olur. Hansısa bir yerli sayt, media orqanının 14 yaşlı qızla bağlı informasiya yayması doğru deyil. Ümumiyyətlə, buna yol vermək olmaz. Biz bu kimi məsələlərdə diqqətli olmalıyıq".

*"Uşaqlarla bağlı informasiya yayarkən onların adını, soyadını, ünvanını göstərən saytlara, media orqanlarına ciddi məhdudiyyətlər tətbiq olunmalıdır"*

A.Həsrətin sözlərinə görə, bəzi saytlarda uşaqlarla bağlı zorlanma, oğurlanma, qızqaçırma kimi xəbərlərin yer alması erməni mətbuatında da öz əksini tapır. O hesab edir ki, Ermənistanın bizi ciddi şəkildə izlədiyi və hər an bizə şər-böhtan atdığı bir dövrdə saytlar bu kimi xəbərləri yaymaqla onların əlinə bizi vurmaq üçün bu cür "silah" verməməlidirlər. "Ermənilərin bizi addımbaaddım izlədiyini nəzərə alaraq deyərdim ki, bu kimi informasiyaların tirajlanması erməni dəyirmanına su tökməyə xidmət edir. Biz Ermənistana fürsət verməməliyik ki, onlar bizim qara obrazımızı cızmaq üçün mediamızdan, jurnalistlərimizdən istifadə etsinlər. Təəssüflə qeyd etmək istəyirəm ki, bəzən bəzi saytlar buna şərait yaradırlar. Yayacağımız informasiyalar ermənilərin maraqlarına uyğun gəlirsə, əlbəttə, o cür informasiyaları yaymaqdan vaz keçməliyik. Amma burada informasiya azadlığı var və medianın informasiya yaymaq haqqı mövcuddur, onların xəbər yaymaq imkanlarını zorla məhdudlaşdırmaq olmaz. Sadəcə olaraq, uşaqlarla bağlı həssas informasiyaların tirajlanmasına çəki-düzən vermək lazımdır. Yəni qızqaçırma, zorlama hadisəsi baş veribsə və s. bununla bağlı informasiyanı bəlli bir məhdudiyyət çərçivəsində vermək lazımdır ki, ermənilər istəsələr belə ondan faydalanıb əleyhimizə istifadə edə bilməsinlər. Bu artıq peşəkarlıq və sensasiya ardınca qaçmamaq məsələsidir. Təəssüf ki, o cür informasiyaları yayanların çoxu sensasiya dalınca qaçır ki, bu xəbəri yaysam daha çox oxucu, dinləyici, tamaşaçı toplaya biləcəyəm. Düşünürəm ki, bu məsələyə ciddi şəkildə çəki-düzən vermək lazımdır. Uşaqlarla bağlı informasiya yayarkən onların adını, soyadını, ünvanını və s. göstərən saytlara, media orqanlarına ciddi məhdudiyyətlər tətbiq olunmalıdır" - deyə A.Həsrət qeyd etdi.

***İradə SARIYEVA***

---

**Bakıətrafı kəndlərə xidmət edən avtobusların fəaliyyəti ilə bağlı zaman-zaman yazılıb. Son illər bununla bağlı bəzi işlər görülüb. Belə ki, avtobuslar yenilənib, sayı artırılıb, xətlərə iritutumlu avtobuslar buraxılıb və s. Halbuki, əvvəllər Bakıətrafı kənd və qəsəbələrə işləyən marşrut xətlərinin müəyyən qismində avtobusların vəziyyəti ilə bağlı texniki problemlər mövcud idi. Bu da bir sıra problemlər yaradırdı.**

# Balaxanı qəsəbəsinin "böyük avtobuslar" problemi, əslində, böyük problem kimi...




## *Elmar Zahidov: "Avtobusların ortatutumlu olması səbəbindən heç bir marşrut xəttində 216 saylıdakı qədər basabas olmur"*

## *Mais Ağayev: "Sözügedən problemlərin həlli ilə bağlı iş aparılır"*

Görülən tədbirlər çərçivəsində 150, 101, 187, 173, 189, 131, 172 saylı marşrutların işi yenidən quruldu. Sözügedən marşrut xətlərinə iritutumlu avtobuslar buraxıldı. Aradaki interval azaldıldı. Bütün bunlar sərnişin sıxlığının azalmasına müsbət təsir göstərdi.

Ancaq görünən odur ki, bu yöndə həyata keçirilən tədbirlər heç də bütün Bakıətrafı kənd və qəsəbələri əhatə etməyib. Sözügedən məsələ ilə bağlı qəzetimizə şikayət edən Sabunçu rayonu, Balaxanı qəsəbəsi sakini Elmar Zahidov marşrut xəttinin fəaliyyətindən narazı olduğunu bildirdi. Onun sözlərinə görə, qəsəbəyə 2 marşrut işləyir: "Bunlardan biri 216, o biri isə 105 saylı marşrut avtobuslarıdır. Belə ki, "8-ci kilometr" bazarının yanından qəsəbəmizə 105 saylı marşrut avtobusu işləyir. 216 saylı avtobus isə "Koroğlu" metrostansiyasından Yeni Balaxanı qəsəbəsinə işləyir. Sakinlər əsasən 216 saylı avtobusdan istifadə edirlər. Həmin avtobusa minmək üçün sakinlər hər gün bir neçə kilometr yol qət etməli olurlar. Uşaqlar hər gün məktəbə getmək üçün xeyli yolu piyada getməli olurlar. Qəsəbə sakinləri bir çox hallarda taksilərdən istifadə edirlər ki, bu da onları əlavə xərcə salır".

E. Zahidovun sözlərinə görə, marşrut xəttində olan avtobusların tutumu balacadır: "İstər 216, istərsə də 105 saylı marşrut xəttində olan avtobuslar ortatutumludur. Bu da basabas yaradır. Əgər xəttə böyük avtobuslar buraxılsa, belə çətinliklərlə üzləşmərik. Axşamlar yorğun işdən qayıdanda avtobusa minmək olmur. O dərəcədə basabas olur. Siz fikir versəniz görərsiniz ki, avtobusların ortatutumlu olması səbəbindən heç bir marşrut xəttində 216 saylıdakı qədər basabas olmur. Bunun başlıca səbəbi avtobusların ortatutumlu olmasıdır. İritutumlu avtobuslar olsa, bu boyda basabas da olmaz. Qəsəbədə yaşayan əhalinin sayı çox olduğuna görə belə avtobuslarla get-gəl etmək çox çətindir. Sıxlıq üzündən səhərlər işə getmək, axşamlar işdən evə qayıtmaq müşküldür. Buna görə xeyli vaxt itiririk. Hansı ki, iritutumlu avtobuslar olsa, bu qədər çətinlik çəkmərik".

**Sözügedən məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin Mətbuat xidmətinin rəhbəri Mais Ağayevlə əlaqə saxladıq.** O bununla bağlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sakinlər yaranan problemlə əlaqədar quruma rəsmi müraciət etməlidirlər: "Ümumilikdə, paytaxtda avtobusların yenilənməsi işləri gedir. Yaxın vaxtlarda komfortlu yeni avtobuslar gətiriləcək. Həmin avtobuslar gətirilən zaman narahatlıq doğuran xətlər yenilənəcək. Bütün hallarda, sözügedən məsələ ilə bağlı yaxşı olardı ki, Balaxanı qəsəbəsi sakinləri agentliyə rəsmi müraciət etsinlər və onların üzləşdiyi problemə baxılsın. Ümumilikdə, onları narahat edən məsələ bizə məlumdur. Biz də bilirik ki, bununla bağlı yaranan problem onları narahat edir. Ona görə də sözügedən problemlərin həlli ilə bağlı iş aparılır".

***Vidadi ORDAHALLI***

**Hər bir ailə kiçik dövlətə bənzəyir. Onun da öz adət-ənənəsi, yaşam tərzi, mühiti var. Bu kiçik dövlət ictimai həyatın mədəni və mənəvi səviyyəsinin yüksəlməsinə, inkişafına böyük təsir göstərir. Eyni zamanda, ailə insanların sosiallaşmasını təmin edən başlıca mənbə və ən önəmli qaynaq sayılır.**

# Azərbaycanda nikaha məcburetmə halları necə yaranır...

***Fatimə Hacıbəyli:** "Gənc nəslin yaşlı nəslin diktəsi ilə oturub-durması keçmişdə o qədər də risqli deyildi, indi isə zor gücünə qurulan ailələr təhlükəlidir"*



*"Bu gün cəmiyyətimizdə ailə qurmağın geridə qalmış üsullarından biri məhz qızın, yaxud oğlanın razılığını zərrə qədər önəmsəmədən, valideynlərin məcburi evlilik formalaşdırmasıdır"*

İnsani dəyərlərin, mədəniyyətin və nəsillərin tarixi varisliyinin qoruyucusu kimi də ailə həmişə cəmiyyətin əsas təsisatlarından biri olaraq qalıb və qalacaq. Məhz ona görə sağlam ailə sağlam cəmiyyətin təməli hesab olunur.

Ailə şəxsiyyəti və cəmiyyəti formalaşdıran mühüm sosial institut kimi qəbul edilir. Azərbaycan mentallığında da ailə xüsusi məna kəsb edir. Azərbaycan ailəsi özünəməxsusluğu, yüksək mənəvi dəyərlərə bağlılığı ilə seçilir. Azərbaycan xalqı yeni qurulan ailəyə müqəddəs bir hadisə kimi baxır, onun ülviliyini qoruyur və təməlinin möhkəm olmasına çalışır. Çünki yeni qurulan ailənin təməli nə qədər möhkəm olarsa, cəmiyyət də bir o qədər möhkəm və sağlam olar.

Bu kimi amillər nəzərə alındığından, müstəqil Azərbaycanda sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini də məhz ailə siyasəti təşkil edir. Ölkəmizdə həyata keçirilən dövlət ailə siyasəti milli-mənəvi dəyərlərdən qaynaqlanır və bilavasitə onu təcəssüm etdirir. Bu gerçəkliyi daim nəzərə alan Azərbaycan hökuməti ailə siyasətinin formalaşdırılmasına ciddi diqqət yetirir. Ailə siyasəti ilə bağlı məsələlər əsas vəzifələrdən biri kimi qarşıya qoyulur, ailənin inkişafı, cəmiyyətdə onun yerinin möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Hazırda Azərbaycan Respublikasının Konstitusiyasında, eləcə də Ailə Məcəlləsində ailə münasibətlərinin tənzimlənməsi öz əksini tapır. Azərbaycan Respublikasının ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyini, ailə üzvlərinin ailə qarşısında məsuliyyətini, onların hüquqlarının maneəsiz həyata keçirilməsini müəyyən edir.

Lakin təəssüflər olsun ki, bəzən yeni ailə qurularkən həm qanunvericilikdən, həm də mentalitetimizdən və dinimizdən irəli gələn tələblərə riayət olunmur. İmkanlı adamla qohumluq şansını itirməkdən, qızının evdə qalacağından, yeni doğularkən uşaqları göbəkkəsdi edib "əhd-peyman" bağladığı dostu ilə üz-göz olmaqdan ehtiyat edən valideynlər övladlarının razılığını almadan onları ailə həyatı qurmağa məcbur edirlər. Belə hallarda "Mənim sözüm yerə düşməməlidir!" deyən valideynlər qız övladlarının göz yaşlarına belə, məhəl qoymurlar. Halbuki, məcburi nikaha nə dinimiz, nə də qanunlarımız məcburi nikahı qəbul edir. Ancaq buna baxmayaraq, Azərbaycanda məcburi evlilik hallarına hələ də rast gəlinir. Açıqlanan statistik rəqəmlərdə ölkəmizdə məcburi nikaha girmə hallarının artdığı qeyd olunur.

Bu barədə bu günlərdə Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində keçirilən "Gender bərabərliyi və media" mövzusunda konfransda çıxış edən Ailə,Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri, CEDAW Komitəsinin üzvü Elgün Səfərov deyib. O bildirib ki, dünyada hər 30 saniyədə bir qadın insan alverinin qurbanı olur. Ümumilikdə, dünyada 700 milyon qadın məcburi nikaha daxil olub. Təəssüf ki, Azərbaycanda məcburi nikaha daxilolma faktı artmaqda davam edir.

Məcburi nikaha daxilolmanın nə səbəbdən artması barədə ekspertlər maraqlı izah verdilər.

**"Vəfa" Sosial İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, keçmişdən qalan bəzi ənənələrin müasir zamanda tətbiq olunması doğru deyil. Onun sözlərinə görə, keçmişdə hətta elə hallar olub ki, hansısa valideyn oğullarından soruşmadan onun üçün qız alıb:** "İndi zəmanə dəyişdiyindən, münasibətlər də dəyişib. Valideynlər uşaqlarını bu cür məcburi evləndirməməlidirlər. Tutalım ki, xanım məcburi də olsa, ürəyi istəməsə də, neyinsə xatirinə dözür. Lakin kişi nəyəsə göz yummur axı. O, evliliyini gələcəkdə dağıtmasa belə, kənarda sevdiyi qızla münasibətini davam etdirir. Bu cür nikahınsa heç cür yaxşı nəticələnməyəcəyini hamı bilir. Çox vaxt isə bu cür məcburi nikahların axırı boşanmaqla qurtarır. Digər tərəfdən, bəzi hallarda bəylərimiz qızı valideyn üçün alır. Lakin bu da sağlam evlilik deyil. Oğlan kimisə sevirsə, sevdiyi qızla evlənməlidir. Öz sevgisinin arxasında sonadək durmağı bacarmalıdır. Çətin ki, istəmədiyi birisi ilə sonadək evli qala bilsin. Bu səbəbdən boşanmamaq üçün belə nikahlardan uzaq durmaq lazımdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, gənc nəslin yaşlı nəslin diktəsi ilə oturub-durması keçmişdə o qədər də risqli deyildi, indi isə zor gücünə qurulan ailələr təhlükəlidir: "Əvvəl sosial mühit məcbur edirdi ki, ailə dağılmasın. Amma indi sosial mühitin təsiri azaldığından, yaşlı nəslin təsiri altında ailə həyatı qurmaq risqlidir.

Son illər ərzində Azərbaycanda boşanmaların, ailə faciələrinin, gənc qadın, kişi intiharlarının və valideyn himayəsindən məhrum olan uşaqların sayı artır. Problemin əsas səbəbləri kimi də uyğunsuz nikah, məcburi evlilik, qurama ailə sistemi və sair göstərilir. Mütəxəssislərin "SOS" deyə fəryad etməsinə baxmayaraq, bəziləri üzləşdiyimiz faciənin fərqində deyil. Əksəriyyət adamlar "Biz atamızdan belə görmüşük, belə də olacağıq!" sindromunu davam etdirir. Bu gün cəmiyyətimizdə ailə qurmağın geridə qalmış üsullarından biri məhz qızın, yaxud oğlanın razılığını zərrə qədər önəmsəmədən, valideynlərin məcburi evlilik formalaşdırmasıdır. Bu "üsul"un tərəfdarları hesab edirlər ki, dinimiz belə buyurub, dədə-babalarımız belə olub, mentalitetimiz belə tələb edir və biz də belə olmalıyıq. Amma başa düşmürlər ki, insan taleyi laborator müayinə müəssisəsi deyil və valideynin gənclər üzərindəki "təcrübəsi" onları xoşbəxt etmək əvəzinə, həyatın girdabına yuvarlayır".

***Günel CƏLİLOVA***

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumata görə, qurumun tabeliyində olan bütün balıqartırma zavodları özəlləşdirməyə açıq elan olunacaq. Artıq bununla bağlı Nazirlər Kabineti və Əmlak Məsələləri Dövlət Komitəsi ilə lazım olan yazışmalar aparılır. O da bildirilib ki, bu məsələ ilə bağlı maraqlı təklifləri, biznes planları olanlar nazirliyə müraciət edə bilərlər.**

# Dövlət balıqyetişdirmə müəssisələri özünü doğrultmadı - İdxal problemi və Ekologiya Nazirliyinin özəlləşdirmə proqramı şəffaflıq gözləntisində...

*"Hesab edirəm ki, özəlləşmə sayəsində ölkədə balıq istehsalı və ixracı arta bilər"*

***Ruslan Atakişiyev:** "Elə etmək lazımdır ki, bu işlə məşğul ola bilən sahibkarlar həmin müəssisələrə rəhbərlik etsinlər"*



Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyevin fikrincə, Azərbaycanda balıqçılığın inkişafı üçün potensial var: "Balıqartırma zavodlarının özəlləşdirməyə açıq elan olunmasında məqsəd ölkədə balıq bolluğu yaratmaqdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi olaraq biz maraqlıyıq ki, hər kəsin süfrəsində insan sağlamlığı üçün çox önəmli qida olan balıq olsun. Sahibkarlar bu zavodları özəlləşdirməklə müasir standartlara uyğun balıq sənayesinin qurulmasına öz töhfələrini verəcəklər".

O da məlum həqiqətdir ki, Azərbaycanın bununla bağlı böyük potensialı olsa da, balıq və balıq məhsullarına olan tələbatın bir hissəsi idxal hesabına ödənilir. Dövlət mülkiyyətində olan müəssisələrin potensialından yetərincə səmərəli istifadə edilməyib. Baxmayaraq ki, son illər ölkəmizdə balıq məhsullarına tələbatın artması müşahidə edilir. Rəsmi statistikaya görə, 2018-ci ildə Azərbaycan 9 min 880 ton balıq idxal edib. Balıq idxalına 15 milyon 569 min dollar vəsait sərf olunub. Müşahidələr göstərir ki, Azərbaycan balıq idxal etməkdə davam edir və balığa olan tələbatın bir hissəsi məhz idxal hesabına ödənilir. Ölkəmiz təzə balıqla yanaşı, balıq konservləri də idxal edir. Ötən il Azərbaycan 5 min 925 ton balıq konservləri idxal edib.

Bütövlükdə, ETSN-in tabeliyində olan balıqartırma zavodlarının özəlləşdirilməsi zamanı nə etmək lazımdır ki, proses şəffaf getsin? Bununla bağlı ekspertlər nə təklif edirlər?

**Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, sözügedən məsələdə bir sıra məqamlara diqqət etmək lazımdır:** "Əvvəla ETSN-in tabeliyində olan müəssisələrin özəl sektora verilməsi mühüm əhəmiyyət kəsb edir. Balıqçılığın inkişafı baxımından bu vacibdir. O cümlədən, özəlləşdirmə zamanı şəffaflığın təmin edilməsi vacibdir. Elə etmək lazımdır ki, bu işlə məşğul ola bilən sahibkarlar həmin müəssisələrə rəhbərlik etsinlər. Müəssisələrdən təyinati izrə istifadə edilsin. Bütün bunlar özəlləşmə prosesinin şəffaf olmasından keçir. Özəlləşdirmə rəqabətin gücləndirilməsinə müsbət təsir edə bilər. Balıq sənayesində ən ciddi problemlərdən biri rəqabətin zəif olmasıdır. O baxımdan balıqartırma zavodlarının özəlləşdirilməsi məqsədəuyğundur. Çünki bu sahənin özəl sektora verilməsi dövlətin yükünü azaldır. Özəl sektor daha çox maraqlı olur ki, istehsal etdiyi məhsul bazarda alınsın. Ona görə də hesab edirəm ki, bunun sayəsində ölkədə balıq istehsalı və ixracı arta bilər. Həm də bu müəssisələrdən dövlət büdcəsinə vergilər daxil olacaq. Düzdür, bəzi balıq məhsulları Azərbaycanda istehsal olunaraq ixrac olunur. Məsələn, ikra ixracını göstərmək olar. Ancaq, bütövlükdə, balıq və balıq məhsullarının istehsalı yetərli səviyyədə deyil.

Elə balıqlar var ki, Xəzər dənizində olmur. Həmin balıqların idxalını hardasa anlamaq olar. Ancaq nəzərə almaq lazımdır ki, bu sahədə Azərbaycanın potensialı böyükdür. Sadəcə, bundan səmərəli və düzgün istifadə etmək lazımdır. Bu zaman həm daxildə məhsul bolluğu yaranacaq və qiymətlər düşəcək, həm də bu, ixraca öz töhfəsini verəcək".

***Vidadi ORDAHALLI***

# Yas mərasimlərimizdə qəzəl?



**Tural İrfan:** *"Yas məclisində şeir və ya qəzəl oxumaq dini rişxənd obyektinə çevirməkdir"*

**Azərbaycanda yas mərasimlərinin keçirilməsi ilə bağlı fərqli standartlar mövcuddur. Yas mərasimlərinin idarə olunmasında da bəzən bu işi öhdəsinə götürən mollaların danışdığı söhbətlər, etdiyi moizələr heç də məclis iştirakçılarının ürəyincə olmur. Bu da haqlı narazılıqlara səbəb olur. Məsələn, redaksiyamıza müraciət edən vətəndaş bildirir ki, metronun "Qara Qarayev" stansiyasına yaxın ərazidə olan "Tuba" adlı mərasim evindəki təşkil olunan yas mərasimində maraqlı halın şahidi olub.**

Onun sözlərinə görə, həmin məclisi iki nəfər molla idarə edirmiş. Onlardan biri Qurandan ayələr oxuyurmuş, digəri isə qəzəl: "Yas mərasimi qohumun olduğu üçün müdaxilə etmədim. Amma mənə maraqlıdır, kişilərin məclisində qəzəlin oxunması nə dərəcədə doğrudur?"

**Biz vətəndaşın sualına cavab tapmaq üçün ilahiyyatçı Tural İrfanla əlaqə saxladıq.** O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hazırda təşkil edilən yas mərasimlərimizdə xeyli xurafat var: "Bu xurafatlar hamısı zaman-zaman bəzi mollaların mənfəət üçün artırıb dinə gətirdikləri bidətlərdir. Məsələn, Peyğəmbər bu dinin əsasını qoymuş şəxsdir, ona öz vəsiyyətinə əsasən cəmi üççə gün yas saxlanıb, nə 7, nə 40, nə 52, nə də il mərasimi təşkil olunub. Bunu İslam tarixi təsdiqləyir. Lakin sonralar ruhanilər yas mərasimlərinin növlərini "icad" edərək özlərinə pul qazanmaq sənəti meydana gətiriblər. Təmtəraqlı yeməklərin təşkil olunması kimi məsələlərin yığışdırılması üçün dəfələrlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi qərar qəbul edib tədbirlər görməyə cəhd etsə də, ölkəmizdə yaslardan qazanc götürən molla şəbəkəsi buna imkan verməyib və bu hələ də davam edir.

Habelə yas mərasimlərini idarə edən mollaların bəziləri ağıllarına gələni danışmaqla, bəsit söhbətlərlə insanları yorur, bəzən dinə ikrah yaradırlar. Yas mərasimi təşkil edilibsə, o mərasimi hökmən mollanın idarə etməsi deyə bir qayda yoxdur dində. Mollanın başa keçib qəzəl, şeir, nağıl oxumasındansa, iştirak edən ziyalıların sıra ilə başa keçib mərhumun yaxşı işlərindən, xatirələrindən danışıb ailəsinə başsağlığı verməsi həm dinə uyğun olar, həm də milli adətlərimizə. Ancaq təəssüf ki, buna mollalar imkan vermirlər".

İlahiyyatçının sözlərinə görə, əhalimizin əksəriyyəti dinin mahiyyətindən məlumatsız olduğu üçün, belə mollalara etiraz edə bilmir və onların etdiklərinə təslim olurlar: "Məclisi molla idarə edirsə, o ilk öncə mərhum haqqında danışmalı, onu tanımayanlara da tanıtmalı, onun yaxşı işlərindən məclis əhlinə söhbət açmalıdır. Sonra dindən, İslamdan, Qurandan bəhs etməli, Quran oxumalı və oxuduğunu tərcümə edərək ərəbcə bilməyənlərin anlaması üçün şərh verməlidir. Yas məclisində şeir və ya qəzəl oxumaq dini rişxənd obyektinə çevirməkdir. Yas məclisi şeir festivalı deyil ki, orada qəzəl oxunsun. Xüsusən də Quranda şeir və şeir yazanlar tənqid edilib. "Şüəra" şairlər surəsində deyilir ki, şairlər etmədikləri işləri danışırlar həmişə...

Yəni şeir adətən şadlıq və toy məclislərində deyilir. Yasda daha ciddi söhbətlər

*"Savadları başqa dini söhbətlər etməyə imkan verməmdiyi üçün şeir-qəzələ üz tuturlar"*

və tövsiyələr danışılmalıdır. Yasda qəzəl oxuyan mollalar bunu öz keflərinə əsasən edirlər. Yaxud da savadları başqa dini söhbətlər etməyə imkan verməmdiyi üçün, şeir-qəzələ üz tuturlar. Necə ki, bir məsəl də var ki, aşığın sözü qurtaranda dalay-dalay deyər".

Tural İrfan hesab edir ki, bu kimi işləri edən ruhanilər, mollalar təəssüf ki, nəzarətsizdirlər: "Amma, ümumilikdə, yaslarda qəzəl-şeir oxuyan mollalar günah etmiş olurlar. Həmin mollaları yasa dəvət edənlərin borcudur ki, ona irad bildirsinlər və hüzn məclisinin ahənginə müvafiq söhbətlərin aparılmasını tələb etsinlər. Çünki o mollaya məclis idarə etmək üçün kifayət qədər rüşvət də verilir. Rüşvət ona görə deyirəm ki, hər bir müsəlmanın fərz olan borcudur ki, digər müsəlmanı yerdən götürsün, təmənnasız onun məclisini idarə etsin və pul almasın. Quranda ölü götürüb pul alanlara qarşı, Allahın ayələrini pul qarşılığında satanlara qarşı "Bəqərə" surəsində sərt ifadələr, tənqidlər var. Bəzən sual edirlər ki, bəs molla nə ilə dolanmalıdır? Əvvəla İslamda molla, ruhani deyə bir təbəqə yoxdur. Peyğəmbər və imamlar da mollalıq etməyiblər, nə də onların davamçıları. Əgər indi bu formalaşıbsa, onda mollalar da hamı kimi bir sənət, peşə öyrənib ruzilərini qazanmalı, Allahın dinini qazanca alət etməməlidirlər. Kimisə dəfn edib yasını aparmaq hər kəsin borcudur. Əgər bilən birisi ölən müsəlmanı dəfn etməsə, onun boynunda böyük günah var deməkdir.

Ona görə də mollaların dəfndən, Quran oxumaqdan aldıqları pullar sırf rüşvət hesab edilir. Peyğəmbərin hədisində deyilir ki, cəhənnəmin əksəriyyəti mollalar, ruhanilər, keşişlər, rahiblər, qazılar olacaq. Məhz həmin cəhənnəm əhli həmin molla sürüsüdür ki, digər hədisində də Allah Elçisi onlar haqda deyir: "Çox Quran oxuyanlar var ki, Quran onlara lənət oxuyur!"

**Ona görə də hesab edirəm ki, bu kimi mənfi işlərin cəmiyyətimizi korlaması, adət-ənənələrimizə xələl gətirməməsi üçün dövlət qurumları xurafatçı ruhani təbəqəsinə qarşı nəzarəti gücləndirməlidirlər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Müəyyən yaşa qədər uşaqlar üçün muzeylərimizə giriş niyə pulsuz olmasın...

**Muzeylər tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin, maddi-mədəni dəyərlərimizin qorunduğu məkandır. Gələcəyimiz olan uşaqların vaxtaşırı olaraq muzeylərə aparılması, onları tariximizlə, maddi-mədəni dəyərlərimizlə tanış etmək, onlara bu barədə bilgilər vermək vacib bir məsələdir. Əvvəlki dövrlərlə müqayisədə bu gün muzeylərə maraq elə də kütləvi deyil.**

Bir sıra uşaqların, ümumiyyətlə, muzeylər haqqında təsəvvürləri yoxdur. Bu da ondan irəli gəlir ki, uşaqları muzeylərə aparmırlar. Bunun bir səbəbi məktəblərin, valideynlərin bu məsələyə həvəssiz yanaşması, digər səbəbi isə muzeylərə girişin pullu olmasıdır.

Ümumiyyətlə, 6-12 yaşarası uşaqlar üçün muzeylərə giriş pulsuz olmalıdır ki, onlar istədikləri vaxt muzeylərə gedib buradakı eksponatlarla tanış olsunlar, xalqımızın müxtəlif tarixi dövrlərini əks etdirən maddi-mədəni sərvətləri haqqında məlumatlar əldə etsinlər. Hazırda bütün muzeylərə uşaqların girişi ödənişlidir. Azyaşlı uşaqlar muzeylərə getmək üçün yarım bilet almalıdırlar. Nəzərə alaq ki, hazırda xeyli sayda valideynin uşaqlarına bilet almaq üçün elə də böyük imkanı yoxdur. Elə ailə var ki, bir deyil, üç-dörd uşağı məktəbə gedir.



Muzeylər məktəb yaşlı uşaqlar üçün informasiya almaq, tanışlıq baxımdan daha maraqlıdır. Odur ki, uşaqlar üçün muzeylərə giriş pulsuz olarsa, onların muzeylərə marağı artar. Bu gün muzeylərin təbliği baxımından bu addımın atılması daha məqsədəuyğun olmalıdır.

6-12 yaşlı uşaqlar üçün muzeylərə giriş pulsuz olarsa, bunun nə kimi faydaları ola bilər?

Mədəniyyət Nazirliyinin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsindən "Bakı-Xəbər"ə bildirdilər ki, bu gün uşaqların muzeylərə girişi ödənişlidir və hər muzeyin də özünəməxsus qiyməti var. Bundan başqa, nazirliyin müvafiq şöbəsindən onu da dedilər ki, Təhsil Nazirliyi ilə Mədəniyyət Nazirliyi arasında bağlanan əməkdaşlıq müqaviləsinə əsasən, bəzi məktəblərin şagirdləri ilin müxtəlif günlərində muzeylərə heç bir vəsait ödəmədən gedə bilirlər. Şöbə əməkdaşlarının sözlərinə görə, həmin şagirdlər muzeylərdə olur, hətta burada onlar üçün açıq dərslər də təşkil edilir. "Məktəblilərin muzeylərə pulsuz daxil olması üçün Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyi arasında müqavilə imzalanıb. Bu müqaviləyə əsasən, bəzi məktəblərin şagirdləri muzeylərə pulsuz giriş əldə edə bilirlər. Azyaşlı şagirdlərin muzeylərə pulsuz daxil olması üçün məktəblər özləri müraciət etməlidirlər. Onlarla müqavilə imzalanmalıdır ki, şagirdlərin muzeylərə ödənişsiz girişi təmin olunsun. Məktəblər nazirliyə müraciət etsə ki, biz şagirdlərimizin muzeyə girişinin pulsuz olmasını istəyirik, onda

***Mədəniyyət Nazirliyi:*** *"Azyaşlı şagirdlərin muzeylərə pulsuz daxil olması üçün məktəblər özləri müraciət etməlidirlər"*

***Xəyalə Rais:*** *"Azyaşlı məktəblilərin muzeylərə cəlb edilməsi üçün muzeylər və məktəblər birgə maraqlı layihələr həyata keçirməlidirlər"*

nazirlik bu məsələni təmin edir. Bizə hansı məktəb müraciət edirsə, həmin məktəblərin şagirdlərinin muzeylərə girişi ödənişsiz olur. Onlar burada açıq dərslər də keçirlər" -deyə şöbə əməkdaşı bildirdi.

**Mədəniyyətşünas Xəyalə Rais isə bizimlə söhbətində bildirdi ki, ümumiyyətlə, uşaqların muzeylərə kütləvi şəkildə cəlb edilməsi olduqca vacibdir.** X.Rais hesab edir ki, bu gün muzeylərə marağın az olması bizi ciddi narahat etməlidir. "Hazırda uşaqlar muzeylərə elə də ciddi maraq göstərmirlər. Bunun da səbəblərindən biri muzeylərə girişin uşaqlar üçün də ödənişli olmasıdır. Düzdür, bəzi tarixi şəxsiyyətlərin, ədiblərin, bəstəkarların ev muzeyinə giriş məktəblilər üçün pullu deyil. Ancaq paytaxtda fəaliyyət göstərən bütün digər muzeylərə giriş ödənişlidir. Azyaşlı məktəblilərin muzeylərə cəlb edilməsi üçün muzeylər və məktəblər birgə maraqlı layihələr həyata keçirməlidirlər. Muzeylər heç olmasa həftənin 1-2 gününü azyaşlı məktəblilər üçün pulsuz elan etməlidirlər. Hesab edirəm ki, bununla muzeylər heç nə itirməz, əksinə, qazanarlar. Bilirsiniz, Sovet dövründə 6-12 yaşarası uşaqlar mədəniyyət ocaqlarına, xüsusən də muzeylərə pulsuz daxil olurdular. Bu gün də bu məsələ aktualdır. Fikrimcə, muzeylər və məktəblər arasında müqavilələr bağlanmalı, bu müqaviləyə əsasən, azyaşlı şagirdlərin muzeylərə ödənişsiz girişi təmin olunmalıdır. Əgər tariximizi, mədəniyyətimizi uşaqlarımıza sevdirmək istəyiriksə, mütləq bu addım atılmalıdır" - deyə X.Rais qeyd etdi.

***İradə SARIYEVA***

# Ədəbi mükafatların verilməsində qeyri-şəffaflıq şübhələri - bir adam neçə dəfə ala bilər...




***Qiymət Məhərrəmli:** "Mükafat verilərkən burada yaradıcılıq amili deyil, qohumbazlıq, yerlibazlıq və digər məsələlər rol oynayır"*

***Sadiq Qarayev:** "Xalq üçün müəlliflərin deyil, əsərlərin fərqi var"*



**Mükafat bütün hallarda yaradıcı insana stimul verən, onu ruhlandıran bir faktordur. Dünyada ən müxtəlif sahələr üzrə mükafatlar təsis olunub və həmin mükafatlar aidiyyəti sahələrin seçilən simalarına verilir. Azərbaycanda da həm dövlət qurumları, həm ictimai təşkilatlar, həm də müxtəlif fondlar tərəfindən müxtəlif mükafatlar təsis edilib.**

Bu gün Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi bir neçə mükafat var ki, həmin mükafatlar şairlərə, yazıçılara, ədəbiyyat tənqidçilərinə verilir. Ölkəmizin ədəbi ictimaiyyətində populyar olan "Rəsul Rza", "Hikmət Ziya", "Tofiq Mahmud", "Şahmar Əkbərzadə", "Cəfər Cabbarlı", "Qızıl kəlmə" və sair mükafatlar var ki, bu mükafatlar yaradıcı insanlara təqdim edilir.

Onu da qeyd edək ki, çox zaman bu mükafatların laureatlarının adları ictimaiyyətə açıqlandıqda bu hadisə böyük qalmaqalla, söz-söhbətlə müşayiət olunur. Yaradıcı şəxslər bildirirlər ki, mükafatlar əsərin səviyyəsinə, şair-yazıçının yazdıqlarına, ədəbi fəaliyyətinə görə deyil, başqa keyfiyyətlərinə görə verilir. Hətta iddia edirlər ki, ədəbi mükafatlar verilərkən burada dostluq, qohumluq əlaqələri və s. əsas götürülür. Ədəbiyyat adamları bildirirlər ki, ədəbiyyat mükafatlarının verilməsi qaydalarında qeyri-şəffaflıq mövcuddur. Onlar hesab edirlər ki, bu qeyri-şəffaflıq sayəsində də bəzən bir adda mükafatı dəfələrlə eyni adamlar alır, yaxud bir adam hər il belə mükafatlara layiq görülür. Yəni bütün siyahılara bəlli yazıçı və şairlərin adları salınır və hər dəfə mükafat onlara qismət olur. Bu da yaradıcı insanlar arasında ciddi söz-söhbətlərin yaranmasına səbəb olur.

Bir yazıçının hər il ədəbiyyat mükafatı alması nə dərəcədə doğrudur?

**Filologiya üzrə fəlsəfə doktoru, tanınmış şairə Qiymət Məhərrəmli hesab edir ki, bir sıra ədəbi mükafatlar verilərkən burada şəffaflıq qorunmur.** Şairənin sözlərinə görə, həmişə bəlli adamların ədəbi mükafatlara layiq görülməsi, onların əsərlərinin "ilin əsəri" kimi təqdim edilməsi mükafatların obyektivliklə verilmədiyinə bir işarədir. Q.Məhərrəmlinin sözlərinə görə, çox zaman mükafata təqdim edilən əsərlərin səviyyəsinə, ədəbi tutumuna, mövzusuna görə deyil, konkret şəxslərə, imzalara görə mükafatlar verilir. Bu amilin də yaradıcı şəxslər tərəfindən normal qəbul edilmədiyini deyən şairənin bildirdiyinə görə, ədəbi mükafatlar verilərkən, birmənalı olaraq, əsas kimi əsərlərin səviyyəsi götürülməlidir. "Olduqca aktual mövzuya toxunmusunuz və bu mövzunu ictimailəşdirmək çox lazımdır. Bu gün saysız ictimai, yaradıcı qurum var. Hər bir qurum da əldəqayırma mükafatlar təsis edərək öz maraqlarına uyğun gələn adamlara paylayır. İctimai qurumların təsis etdiyi mükafatların böyük əksəriyyətinin heç bir əhəmiyyəti olmur. Çünki mükafat verilərkən burada yaradıcılıq amili deyil, qohumbazlıq, yerlibazlıq və digər məsələlər rol oynayır. Odur ki, bizdə bir çox yaradıcı qurumun, təşkilatın təsis etdiyi mükafatların verilməsində şəffaflıq təmin olunmur. Mən mükafatlardan danışarkən dövlət tərəfindən təsis edilən mükafatları bura qatmıram, çünki bu mükafatlar dövlət tərəfindən verilir. Mən heç bir vaxt mükafat almamışam, inanın ki, heç o iddiada da olmamışam. Sadəcə olaraq, bu mükafatların verilməsi prosesini kənardan izləyirəm. Mən ədəbi mükafatların hansı əsaslarla verildiyini bilirəm. Mən 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm, ancaq indiyə qədər bu qurumun xətti ilə nə mükafat almışam, nə də kitabım çap olunub. Bilirsiniz, hər bir ədəbiyyata xidmət edən istedadlı adamın hallal haqqıdır ki, mükafat alsın. Obyektivlik varsa, əsl yazarları da görərlər. Əgər ölkə ilə yanaşı, ölkə hüdudlarından kənarlarda da əsərlərin çap olunursa, tərcümə edilirsə və xarici ölkələrə dəvət edilirsənsə, sənin istedadın qiymətləndirilirsə, mükafat da almalısan. Adını şair, yazıçı qoyan adamlar var ki, qapı-qapı gəzib yazdıqlarını çap etdirmək istəyirlər, hətta buna görə pul da təklif edirlər ki, mənim əsərlərimi çap edin. Ancaq mənim yazılarımı, şeirlərimi müxtəlif mətbuat orqanları özləri çap edirlər, hətta xarici ölkələrdə də belədir. Mən nə mükafat, nə də digər təltiflər üçün heç kəsin qapısını döyməmişəm, döymərəm də. Siz eyni adda mükafatı dəfələrlə eyni adamın aldığını deyirsiniz, bu düzdür. Hətta Yazıçılar Birliyinin təqdimatına əsasən illik Prezident mükafatını belə dəfələrlə alan adamlar var. Bunlar hansı şərtlərlə verilir, bilmirəm. Ancaq bu kimi məsələlərdə obyektivlik gözlənilməli, şəffaflıq olmalıdır. Çünki sənət, ədəbiyyat saxtakarlığı sevmir. Hər birimiz yaxşı bilirik ki, şair, yazıçı anadan bu cür doğulmalıdır. Ancaq gözümüzün önündə 60, 70 yaşdan sonra yazıçı, şair olmaq iddiasına düşənlər də var. Saxta yazılarla, kimlərsə pul verib kitabını çap etdirməklə, kimlərinsə, nəyinsə hesabına mükafat almaqla deyil. Hətta elələri var ki, pul gücünə başqasına şeir, hekayə yazdırıb adlarına çap etdirirlər. Fikir verirəm ki, ədəbi mükafatlar alanlar arasında elələri çoxdur, özü də onlar həmin mükafatları dəfələrlə alırlar. Çox arzu edərdim ki, mükafatlar verilərkən əsl şair, yazıçının əsərləri əsas götürülsün. Bilirsiniz, mükafat yazıçıya, şairə stimul verir. Əgər bu mükafatlar halal sahibinə verilərsə, bu, oxucunun da ürəyindən xəbər verər. Çünki oxucu kimin kim olduğunu çox yaxşı bilir. Sən oxucunu aldada bilməzsən".

Q.Məhərrəmli hesab edir ki, indi verilən ədəbi mükafatlar verildiyi dövrdə aktual olur, ondan sonra heç kəs bu mükafatları nəzərə almır, yada salmır. Mükafatın heç nəyi həll etmədiyini deyən Q.Məhərrəmlinin sözlərinə görə, yazıçıdan, şairdən əsər qalır. "Bilirsiniz, mükafatların verilməsində qeyri-şəffaflıq olduqda bu əsl şair və yazıçılara pis təsir edir, onları iyrəndirir. Mən ədəbi mühitdə aktiv olanda çoxları bu meydanda yox idi. Heç kəsə paxıllıq etmirəm, sadəcə, olanı deyirəm. Mən heç də Yazıçılar Birliyinin orqanlarında çap olunmağın həsrətində deyiləm, mənim nə ölkədə, nə də xaricdə çap olunma problemim yoxdur. Ancaq obyektivlik naminə deyirəm. Bu gün mənim üçün ictimai qurumlar tərəfindən verilən ədəbi mükafatların heç bir əhəmiyyəti yoxdur. Ancaq dövlət tərəfindən verilən mükafatlara layiq olan şair və yazıçılarımız çoxdur" - deyə Q.Məhərrəmli qeyd etdi.

**Bu günlərdə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Qızıl kəlmə" mükafatına layiq görülən, Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Sadiq Qarayev isə hesab edir ki, bu mükafat onun yaradıcılığına, əsərinə verilib.** "Mən "Qızıl kəlmə" mükafatı ilə bağlı keçirilən müsabiqəyə iki dəfə qatılmışam. Lakin həmin iki dəfə də də qalib ola bilmədim. Nəhayət, üçüncü dəfə qatıldım və artıq mükafatçılar sırasında yer aldım. Birinci dəfədir ki, ədəbiyyat üzrə mükafat alıram. Digərlərini deyə bilmərəm neçə dəfə qatılıb, neçə dəfə alıblar. Ancaq, prinsipcə, nəzəri baxımdan ola bilər ki, bir mükafatı bir adam 2-3 dəfə alsın. Əgər onun əsəri doğrudan da müsabiqədə iştirak edən əsərlər arasında ən güclüdürsə, ona demək olarmı ki, siz əvvəl almısınız, indi niyə alırsınız? "Qızıl kəlmə" mükafatı əsərə görə verilir. Deyək ki, indi müəllifi olduğum "Sahibsiz kölgələr" əsərinə verilbsə, gələckdə bundan yaxşı bir romanım olarsa, ona verilməməlidir? Bu yanaşma düzgün deyil.

Həqiqətən də təqdim edilən əsərlərin içindən ən yaxşı əsəri seçmək qalır münsiflərin vicdanına, vətənpərvərlik, dövlətpərvərlik səviyyəsinə, haqqı, ədaləti pula, telefon zənginə, qohumbazlığa dəyişməmək iradəsinə. Bu bir də qeyd olunan işi həyata keçirən nazirliyin fəaliyyətini nə dərcədə düzgün, şəffaf qurmasına bağlı olan məsələdir. Şəxsən bir müəllif kimi deyil, oxucu kimi onu deyə bilərəm ki, "Sahibsiz kölgələr" romanı bu mükafata layiq idi. Digər mükafta alanları da təbrik edirəm, inanıram ki, layiqdirlər" - deyə S.Qarayev vurğuladı. S.Qarayev, həmçinin, qeyd etdi ki, hər seçimin sonunda narazılıqlar olur və olması da təbiidir: "Əsas o deyil ki, S.Qarayev aldı, ya başqası aldı. Əsas odur ki, layiqli əsər alsın. Əsərlər hamısı bu xalqındır. Xalq üçün müəlliflərin deyil, əsərlərin fərqi var".

***İradə SARIYEVA***

№ 86 (3984) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

15 MAY 2019-cu il

www.baki-xeber.com

# Seyşel adalarında on min il əvvəl yoxa çıxmış quşun izləri tapıldı

**Portsmut Universitetinin tədqiqatçıları Seyşel adalarında on minlərlə il əvvəl yoxa çıxmış küvyer (Dryolimnas cuviere) növündən olan quşun izlərini aşkarlayıblar.**

"Oxu.az" xəbər verir ki,"Zoological Journal of the Linnean Society"nin yazdığına görə ağboğazlılar fəsiləsindən olan küvyer Aldabra atolunda (mərcan adasındared) yaşayıb. Quşun toyuq ölçüsündə olduğu bildirilir. Buna qədər zooloqlar adanın sualtında qalan zaman uça bilmədikləri üçün bu növdən olan bütün quşların məhv olduğunu güman edirdi. Təxminən, 100 min il əvvəl adanın su səviyyəsi aşağı düşüb və mərcan adası yenidən səthə çıxıb. Bu yaxınlarda tədqiqatçılar onda çoxdan nəsli kəsilmiş quşun "təzə" izlərini aşkarlayıb. Britaniyalı tədqiqatçılar bunu iterativ təkamüllə izah edir. Fərziyyəyə görə, eyni növdən olan nümayəndələr ayrı-ayrı vaxtlarda eyni əcdaddan təkamül edə bilər.



Alimlər iddia edir ki, adanın suyun səthinə qalxmasından sonra, küvyerlərin ulu əcdadından olan quş atola gələrək, bir daha uça bilməyən quşa təkamül edib.

## Elan

Seyidov Ramin Seyidəhməd oğluna verilmiş, Xaçmaz şəhəri, N.Nərimanov küçəsində yerləşən məişət pavilyonunun bərbərxanasının şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Böyük Dəhnə kənd sakini İbrahimov Rizvan Abuzər oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 602 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

"TOUR-İNVEST" MMC-yə məxsus 04 may 2004-cü il tarixli nizamnamə itdiyi üçün etibarsız hesab olunur.

Şəki rayonu, Daşbulaq kənd sakini Əsədov Nadir Məmməd oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0082 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki şəhəri, 20 Yanvar küçəsi 50 A ünvanında yaşayan Hacıyeva Vüsalə İlham qızının adına verilmiş 0379616 saylı Daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Eyvazlı Samirə Ramiz qızına və ailəsinə məxsus JN: 434 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Vəliyev Bəylər Aslan oğlunun adına, Bakı şəhəri, Abşeron rayonu, Qobu qəsəbəsi, Səməd Vurğun küçəsi, ev 112 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Səlimov Sabir Rəşidoviçə məxsus, Mərdəkan qəsəbəsindəki 601/1399 bağa dair müqavilə və orderi itdiyi üçün etibarsız sayılır.

Şamayev Turan Səbuhi oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Ruslan Səxavət oğlunun adına, Bakı şəhəri, Nizami rayonu, E.Süleymanov küçəsi, ev 49, mənzil 183 ünvanının orderi (№029638) itdiyi üçün etibarsız sayılır.

Qasımova Bəsti Xidmət qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənov Elmir Gülağa oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Nar" gənclərin intellektual inkişafına töhfə verməyə davam edir

**Ölkənin ən gənc mobil operatoru "Nar"ın dəstəyilə baş tutan "Breyn Rinq" intellektual bilik yarışının on üçüncü mövsümünün ilk finalçılarının adları bəlli olub. Belə ki, kubok uğrunda mübarizədə "Gəncə" və "Nar" komandaları, eyni zamanda, daha iki qalib komanda yarışacaq.**

Komanda şəklində yarışda iştirak edə bilməyən şəxslər üçün hər həftəsonu "Nar" öz "Facebook" səhifəsində xüsusi müsabiqə keçirir. "Breyn Rinq"in efirdə yayımlandığı saatda səhifədə paylaşılan suala ən tez cavab verən istifadəçilər müxtəlif hədiyyələrlə təltif edilirlər. Aprel ayının intellektlilərinin adları isə artıq məlumdur: Əli Məmmədov, İsmayıl Əliyev, Məhbub Osmanov və Rəşad Səttarlı.

Qeyd edək ki, "Breyn Rinq" bilik müsabiqəsində respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 34 komanda iştirak edir. Yarışlar hər həftənin bazar günü saat 20:00-da İctimai Televiziyada yayımlanır. İntellektual oyunun qalibi iyun ayında məlum olacaq və qalib komanda "Nar" kubokunun sahibi olacaq.

Gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafının cəmiyyət üçün əhəmiyyətini anlayaraq, "Nar" öz Korporativ Sosial Məsuliyyət strategiyası çərçivəsində ilboyu müxtəlif layihələrə dəstək verir ki, "Breyn Rinq" bilk müsabiqəsi də bunlardan biridir.

Ətraflı məlumatı https://www.facebook.com/Narofficial hesabından və https://nar.az/ saytından əldə etmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.




**Qoç** - Təslim olmaq fikrində deyilsiniz, bir cəngavər kimi mənfi tendensiyalarla savaşırsınız. İnadınız təqdirəlayiqdir. Amma bir düşünün, qüvvənizi nəyə sərf edirsiniz? Bu, o qədər vacibdir? Hələ ki, gec deyil, özünüzə gəlin.


**Buğa** - Siz bu gün göylərin himayəsindəsiniz. Rəqiblərinizi qabaqlamaq sizə çətin olmayacaq: onların öz problemləri və daxili münaqişələrinə başları qarışmaqdaykən siz öz məqsədinizə doğru inam və asanlıqla addımlayırsınız.


**Əkizlər** - Şübhələr, həyəcanlar başınızı qatıb. Arzularınız və istəkləriniz təzadlıdır. Odur ki, bir saatın ərzində bir neçə fikir dəyişir, çabalayırsınız. Bununla paralel olaraq əhvalınız da "yo-yo" kimi "atılıb-düşür".


**Xərçəng** - Çox mürəkkəb gün olsa da, ondan faydalanmaq mümkündür. Əsas odur ki, əvvəlcədən uğursuz görünən layihələrə baş qoşmayasınız. Çalışın, heç olmazsa, nəzəri cəhətdən dəyərli nəticələr verə biləcək işlərə köklənəsiniz.


**Şir** - Bu gün heç kimlə ünsiyyətiniz alınmır, xüsusilə də işgüzar danışıqlarda. Sonuncuları təxirə salın: əvəzsiz tərəfdaş kimi qəbul etdiyiniz şəxslərlə də savaşa bilərsiniz. Rəhbərliklə fikir ayrılığı meydana gələcək.


**Qız** - Planlaşdırdığınızdan daha az iş görüb çatdıra bilirsiniz. Çünki, bir çox məsələlər qəfil meydana çıxır və onları tez həll etmək lazım gəlir. Çifayda, heç biri təşəbbüs göstərmir və yalnız sizin əmr və göstərişlərinizi gözləyirlər.


**Tərəzi** - İşlər pis getmir. Ambisiyalı, məqsədyönlü adamlar üçün yaxşı gün sayılmaz. Çünki, iş həyatında uğur qazanmaq elə də asan deyil. Əvəzində yaradıcı ideyaların, eyni zamanda çox cürətli planların həyata keçirilməsi üçün münasib vaxtdır.


**Əqrəb** - Ehtiyatlı olun, tempinizi azaldın, lap parovozun önündə qaçanlara oxşayırsınız. Təbii ki, bu hal çox təhlükəlidir. Çünki, əməkdaşlıq etməyə hazırlaşdığınız şəxslər çatdırmır və gecikirlər.


**Oxatan** - Dostları, tərəfdaşları və müttəfiqləri seçərkən ehtiyatlı və diqqətli olun. Bu gün insanların çatışmayan cəhətləri asanlıqla gözünüzdən yayınır. Hətta, aşkar olanı görmürsünüz.


**Oğlaq** - Neytral gündür. Yalnız gücünüz çatan işlərdən yapışın və yalnız özünüzə güvənin. Sizə kömək etməyə söz verən adamlar hansısa səbəblərdən (istəməyərək və ya qəsdən) vədlərinə xilaf çıxacaqlar.


**Dolça** - Xüsusi bir planı olmayanlar üçün gün çox uğurludur. İş görüşləri sizin təxmin etdiyiniz kimi keçəcək, başgicəlləndirici təkliflər heç gözləməyin, amma qarşılıqlı sərfəli sövdələşmələr mümkündür.


**Balıqlar** - Bu yaxınlarda buraxdığınız səhvlərin düzəldilməsi üçün münasib gündür. Canfəşanlıq etmək lazım deyil. Üstəlik, bəzi işlərinizdə köməkçiləriniz və müttəfiqləriniz sizə yardımçı olacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## ABŞ-da 1200, 1660-cı ilə aid ispan sikkələri tapıldı - Tarixdə isə ispanların bu ərazilərə 1776-cı ildə gəldikləri deyilir

**ABŞ-ın Yuta ştatındakı Qlen Kanyon parkında tapılan iki qədim ispan sikkəsi bütün alimləri şoka salıb. "Ölkə.az" bildirir ki, sikkələrdən biri 1200, digəri isə 1660-cı ilə aiddir.**

Alimləri şoka salan səbəb isə ispanların bu əraziyə ilk dəfə 1776-cı ildə gəlmələridir. Bununla belə, onların yolu Qlen Kanyon parkından çox uzaqdan keçib. Arxeoloq Qlen Xarmon sikkələrin həqiqi olduğunu bəyan etdikdən sonra bir sıra versiyalar irəli sürüldü. Bəzilərinin fikrinə görə, bu sikkələri sonradan Avropa dənizçiləri itiriblər. Çünki, o dövrdə dənizçilər arasında köhnə sikkə gəzdirmək uğur rəmzi sayılırdı. Bəzilərinin fikrinə görə, bu, ispanlarla yerli hindular arasında ticarəti sübut edir. Bəziləri isə zaman maşını və zaman portallarından danışır. Londonun Kral kollecinin alimi Rori Smit bildirib ki, bu sikkələri parkda müasir kolleksioner itirib. Bunu bir sıra faktorlar sübut edir: Dəfinələrdə belə köhnə buraxılış ili olan sikkələr yoxdur; Bu sikkələri əraziyə buraxacaq olan ispan qəsəbələri parkdan çox uzaqdadır; Sikkələr torpağın üst qatında aşkar edilib, deməli, bu yaxınlarda itirilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.